# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

16 fevral 2023-ci il

№ 052 (3620)
Qiymәti 50 qәpik


**Gün-Xəbər**



## Prezident serbiyalı həmkarını təbrik edib

**Prezident İlham Əliyev Serbiya Respublikasının prezidenti Aleksandar Vuçiçə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir: *"Hörmətli cənab Prezident, Serbiya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm. Azərbaycan ilə Serbiya arasında münasibətlər möhkəm dostluq, qarşılıqlı etimad və anlaşma üzərində qurulmuşdur. Sıx dövlətlərarası əlaqələrimiz və gündən-günə yeni məzmunla zənginləşən əməkdaşlığımız böyük məmnunluq doğurur... Əminəm ki, Azərbaycan-Serbiya strateji tərəfdaşlığı, siyasi, iqtisadi-ticari, energetika, nəqliyyat-logistika, müdafiə və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.*

*Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".*

## Meksika hökuməti «erməni soyqırımı»nı tanımır

*"Meksika hökuməti və Meksika dövləti erməni soyqırımını tanımır".*




Meksikanın Azərbaycandakı Səfirliyindən verilən məlumata görə, bu sözləri Meksika Senatının sədri Alexandro Armenta Mier Senatın növbəti sessiyası zamanı çıxış edərkən deyib. O, Meksika hökumətinin və dövlətinin erməni soyqırımının mövcudluğunu tanımadığını bildirib və Meksika Senatının daima münaqişələrin danışıqlar və sülh yolu ilə həll olunmasının tərəfdarı olduğunu vurğulayıb.

# UNO iddiası yalan çıxdı

Yadplanetlilərlə bağlı iddialar öz təsdiqini tapmadı. *"ABŞ tərəfindən vurulan "uçan naməlum obyekt"-lər (UNO) əsində zərərsiz şarlar imiş. Yüksək hündürlükdə uçan bu şarlar amerikalılar üçün heç bir təhlükə törətmir".* Bunu ABŞ-ın Kəşfiyyat rəsmiləri Konqresdə keçirilən brifinq zamanı bildiriblər. Brifinq çərçivəsində ABŞ-ın aviasiya və kəşfiyyat bölmələrinin sözügedən hava şarlarının mahiyyəti və məqsədi ilə bağlı araşdırmaları davam etdirəcəyi bildirilib. Xatırladaq ki, Ağ Evin Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar üzrə koordinatoru Con Kirbi ABŞ ordusunun F-22 və F-16 döyüş təyyarələrindən istifadə edərək, fevralın 10-da Alyaska üzərində, fevralın 11-də Kanada hava məkanında və nüvə silahlarının olduğu Montana ştatındakı Huron gölü ətrafında "uçan naməlum obyekt" vurduqlarını açıqlayıb. Bu açıqlamanın ardından yerli KİV-lər başda olmaqla, bir sıra xarici mətbu orqanlar yadplanetlilərlə bağlı müxtəlif sui-qəsd nəzəriyyələri irəli sürməyə, gülünc fikirlər səsləndirməyə başlamışdı.



## Türkiyədəki zəlzələ Azərbaycanda baş versə...



**Hündürmərtəbəli binalarda yaşayanları fəlakət gözləyir**

Səh.3

## Zəlzələni ram edək, yoxsa ona hazırlaşaq?



**"Elim dalınca Çinə də getmək gərəksə, gedin!"**

Səh. 6

## Dərin düşünsək həqiqətə çatarıq



**Türkiyədəki hadisə Lut qövmünün yaşadıqlarını xatırladır**

Səh. 5



## Mirzoyan Çavuşoğlu ilə görüşdən sonra: "Razılaşdıq"

*"Ötən həftə 30 ilə yaxındır bağlı olan Ermənistan-Türkiyə sərhədinin Adıyamaya gedən humanitar yardımla yüklənmiş erməni yük maşınları üçün açılmasını simvolik hesab edirəm".*

Bunu Ankarada səfərdə olan Ermənistan xarici işlər naziri türk həmkarı Mövlud Çavuşoğlu ilə görüşündə deyib.

Birgə mətbuat konfransında çıxış edən erməni nazir bildirib: *"İlk növbədə Ermənistan adından dağıdıcı zəlzələdə həlak olan minlərlə insanın ailələrinə, Türkiyə xalqına və hökumətinə bir daha başsağlığı verir, hər kəsə şəfa diləyirəm.*

*Xalqımın tarixinin ən acı səhifələrindən biri də 1988-ci ildə Spitakda baş vermiş dağıdıcı zəlzələdir və bu gün Türkiyədə minlərlə ailəni ziyarət edən kədər bizə yad deyil. Oxşar təbii fəlakətlər və onların ölçüləri dövlətlərin hüdudlarını aşaraq ümumbəşəri faciələrə çevrilir. Dünya onlara qalib gəlmək üçün vahid cəbhə ilə hərəkət etməlidir. Hesab edirəm ki, planetin hər hansı bir yerində hər hansı humanitar böhran baş verərsə, beynəlxalq ictimaiyyət biganə qalmamalıdır. Məhz bu prinsip əsasında Ermənistan hökuməti fəlakətli zəlzələdən dərhal sonra Türkiyəyə xilasedicilər və humanitar yardım göndərmək qərarına gəlib".*

Mirzoyan sərhədin açılması məsələsinə də toxunub: *"Ötən həftə 30 ilə yaxındır bağlı olan Ermənistan-Türkiyə sərhədinin Adıyamaya gedən humanitar yardımla yüklənmiş erməni yük maşınları üçün açılmasını da simvolik hesab edirəm. Dünən gecə də eyni hadisə oldu və saatlar sonra daha bir humanitar yardım qrupu Adıyamana çatacaq.*

*Bu çətin anda Türkiyədə olmaqla, bir daha Ermənistanın regionda sülhün bərqərar olmasına, xüsusən də Türkiyə ilə münasibətləri tam şəkildə tənzimləməyə, diplomatik münasibətlər qurmağa və Ermənistanla Türkiyə arasında sərhədi tam şəkildə açmağa hazır olduğunu və istəyini bir daha təsdiq etmək istəyirəm.*

*Nəzərinizə çatdırmaq istəyirəm ki, bu gün biz bu proseslə bağlı müəyyən detalları müzakirə etdik, Ani körpüsünü birgə səylərlə təmir etmək, eləcə də sərhəd tam açılana qədər müvafiq infrastruktura əl gəzdirmək barədə razılaşmamız var".*

*Mənsur Rəğbətoğlu*

# XANKƏNDİNDƏ NƏ BAŞ VERİR?

## "Araik getməyə hazırlaşır..."

**Qarabağdakı separatçı cinayətkar qruplaşmanın başçıları Araik Arutyunyan və Ruben Vardanyan Moskvadan qayıtdıqdan sonra Xankəndində hərəkətlilik artıb. Dünən məlum olub ki, Azərbaycanla qeyri-rəsmi təmaslarda olmuş Vitali Balasanyana cinayət işi açılıb, onu bir neçə maddə ilə mühakimə etmək istəyirlər.**



Arutyuyan isə qondarma *"konstitusiyaya"* düzəliş etməklə *"prezidentin" "parlament"* tərəfindən seçiləcəyi ilə bağlı düzəliş etmək istəyir.

Beləliklə, Qarabağ ermənilərı arasında gedən proseslərin arxasında nə dayanır?

Politoloq Fərhad Məmmədov bildirir ki, seçki prosedurunun dəyişdirilməsi bundan sonra separatçıların *"ümumilli seçkilər"* keçirməyəcəyindən xəbər verir. *"Çünki bu, Azərbaycanın qırmızı xəttidir. Arayik hazırkı vəziyyətə uyğun olaraq "hakimiyyətdən" imtina prosedurunu formalaşdırır"*, - o əlavə edib.

Separatçıların başçısının bu addımı nəyə xidmət edir? F.Məmmədov bir neçə variantın nəzərdən keçirilməsini təklif edir:

- Vardanyan üçün. Moskvadakı layihə müəllifləri başlarını divara vurmaqda davam edərək bütün hakimiyyətin Vardanyana ötürülməsinə qərar veriblər. Məncə, bu, o qədər də inandırıcı deyil;

- Araik yorulub, çətin qərarlar qəbul edə bilmir və getməyə hazırlaşır, çünki vəziyyəti idarə edə bilmir və prosesləri "nə istəyirsiz edin..." şüarı ilə "parlament"in ixtiyarına buraxır;

- Araik özünə əvəzləyici hazırlayır. Rəhbərliyə yeni adam gəlir. Bu, tamamilə yeni şəxsdir, həm Azərbaycan, həm də Rusiya sülhməramlıları üçün məqbuldur. Amma Vardanyanla cütləşmiş yeni bir adamın prosesə nə faydasının olacağı aydın deyil. Kimin gətirilə biləcəyinə gəlincə, namizəd siyahısı uzun deyil, onların arasında keçmiş "fövqəladə hallar xidmətinin", hazırkı "mvd"nin rəhbəri Karen Sarkisyanın adı var.

Təhlilçi vurğulayır ki, bütün bu hay-küy 2024-cü ildə olmalı idi, lakin Vardanyanın meydana çıxması prosesləri sürətləndirdi: *"Üstəlik, Azərbaycan ekoaksiyanı bitirmədən Ermənistanı birbaşa danışıqlara çağırır. Erməni tərəfi isə Laçın yolunun açılmasını ilkin şərt kimi qoyur, amma bu, alınmır. Ermənistan XİN başçısının Dövlət Departamentindən xanım Donfrid və rusiyalı həmkarı Lavrovla tez-tez danışıqları da onu göstərir ki, İrəvandan Azərbaycanla müzakirələrin davam etdirilməsi tələb olunur. Fransa və ermənipərəst qüvvələr Brüssel platformasının gündəliyində olmayan Laçın yolu mövzusunu əsas gətirib müzakirələri dayandırdılar. Bu şəraitdə Qarabağ ermənilərinin rəhbərləri simalarını itirməmək, məsuliyyətdən qaçmaq üçün nəsə etməyə çalışırlar. Qarabağda vəziyyət onlardan çox az asılıdır, bu faktın üzə çıxması isə çaşqınlığa səbəb olur".*

F.Məmmədov qeyd edir ki, *"Vardanyan layihəsi"* və eko-fəalların aksiyası 2024-cü ildə baş verməli olan prosesləri daha tez hərəkətə gətirdi. *"Azərbaycan sahədə bəzi resurslarından istifadə edib prosesləri inkişaf etdirdikcə, Ermənistanın, Rusiya və İranın müxtəlif layihələri, ssenariləri üçün manevr imkanları məhdudlaşır"*,- təhlilçi vurğulayıb.

*Rasim Əliyev*

## "Böyük Ermənistan" arzularımız ölüb"

**Erməni politoloq Ara Poqosyan xalqının "Böyük Ermənistan"la bağlı qurduğu xəyallara dair maraqlı fikirlər səsləndirib. O, sosial şəbəkələrdə etdiyi paylaşımda yazıb ki, vaxt var idi hamı bu ideyadan danışırdı.**

İndi isə onları sayan yoxdur: *"Məndə belə bir təəssürat yaranıb ki, ölkəmiz "Böyük Ermənistan" arzusunda olanda dünya üçün daha maraqlı idi. O zaman bəziləri Ermənistana ümid bəsləyirdi, bəziləri isə ona qarşı mübarizə aparırdı. İndi ermənilər arasında "Böyük Ermənistan" arzusunun öldüyü görünür. Belə bir şəraitdə mənim ölkəm ancaq "hesablaşma mərkəzi"nə çevrilib".*



İrəvan Dövlət Universitetinin professoru Qarik Keryanın politoloqa yazdığı cavab da diqqət çəkib. O qeyd eidb ki, *"Yaxşı yazmısınız, amma indi kiçik Ermənistanı əlimizdə saxlamaq problemi ilə üz-üzəyik, böyüyü necə düşünək?".*

Poqosyan isə cavab olaraq deyib: *"Nə qədər ki, yuxarıdan tutmuş aşağıya qədər hər kəs yalnız kiçik Ermənistan haqqında düşünəcək, nə qədər ki, Mehrinin Qarabağdan daha vacib olduğunu deyəcəklər, onda kiçik ərazini əlimizdə saxlamaq problemi bizi təqib edəcək".*



## Aİ İrana sanksiyalar tətbiq edir

*"Avropa İttifaqı (Aİ) İrana qarşı sanksiyalar tətbiq etmək niyyətindədir".*

Bunu Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen deyib.

*"Rusiya Ukraynadakı döyüş meydanında yüzlərlə İran istehsalı olan drondan istifadə edir. Beləliklə, biz ilk dəfə olaraq İran təşkilatlarına, o cümlədən İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) ilə əlaqəli olan təşkilatlara qarşı sanksiyalar təklif edirik"*, - o vurğulayıb.

## Rusların əksəriyyəti işə evdən yemək gətirir - SORĞU

**"Zarplata.ru" araşdırma mərkəzi maraqlı sorğu keçirib. Sorğunun nəticələrinə əsasən məlum olub ki, Rusiya vətəndaşlarının əhəmiyyətli hissəsi işə evdən yemək gətirir.**

Sorğunun nəticələrinə görə təxminən 70% işdə ev yeməkləri yeyir. 52% isə həm ictimai iaşə obyektlərində yeyir, həm də bəzən evdən gətirdiyi ərzaqlarla qidalanır. 46% işdə alınan nahar yeməyinin ailə büdcəsinə ziyan vurduğunu etiraf edib. Eyni zamanda respondentlərin 34%-i ofislərə isti yeməklərin çatdırılması xidmətindən istifadə edir.



## Aşotyan: "Bu, artıq reallıqdır, Qarabağ məsələsi..."

*"İrəvan Bakı ilə imzaladığı Praqa bəyannaməsi ilə Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləyib".*

Bunu Ermənistanın Respublikaçı partiyası sədrinin müavini Armen Aşotyan deyib. Erməni siyasətçi sözügedən sənəddə Ermənistanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığı Almatı bəyannaməsinə istinad edildiyini bildirib.

*"Nikol Paşinyanın rəhbərlik etdiyi hakimiyyət keçən ilin fevral-mart aylarından Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi çərçivəsində fundamental sənəd kimi Almatı bəyannaməsinə istinad etməyə başlayıb. Hətta keçən il Praqada keçirilən dördtərəfli görüşün (Azərbaycan-Ermənistan-AB-Fransa) yekun bəyanatına bu istinadı daxil etdi. Bu faktları bir araya gətirərək deyə bilərəm ki, Qarabağ məsələsinin Almatı bəyannaməsi əsasında (yəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində) həlli reallığa çevrilib"*, - Aşotyan bildirib.

# Nəhəng yuxudan ayılıb, onun intiqamı dəhşətli olacaq



ABŞ-ın hərbi maşını hərəkətə gəlib. ABŞ-ın Avropaya göndərdiyi hərbi texnikanı daşıyan ilk bərə ötən gün Almaniyanın Bremerhaven limanına yan alıb. Bərədə 90 ədəd Stryker zirehli döyüş maşını, 60 ədəd piyadaların döyüş maşını olmaqla 440 ədəd müxtəlif növ hərbi texnika olub. Bu Ukraynaya və digər müttəiqlərinə dəstək üçün ABŞ-ın Avropaya göndərdiyi 1250 ədədlik hərbi texnikanın ilk hissəsidir. Digər texnikaları gətirən daha iki bərə Avropa sahillərinə yaxınlaşmaqdadır.

İkinci Dünya Müharibəsi illərində Yaponiya İmperiyasının Birləşmiş Donanmasının Baş Komandanı olmuş Yaponiya Hərbi Dəniz Qüvvələrinin marşalı İsoroku Yamamotoya aid edilən məşhur ifadə Rusiyanın Ukraynaya qarşı təcavüzünə qarşı ABŞ-ın reaksiyasını ən dolğun şəkildə əks etdirir. Pearl Harbora hücumdan sonra marşal İsoroku Yamamotonun belə dediyi iddia olunur: *“Qorxuram ki, bütün gördüyümüz iş yuxuda olan nəhəngi oyatmaqdan ibarət oldu. İndi onun intiqamı dəhşətli olacaq”.*



Mixail Qorbaçovun ABŞ-a səfərindən sonra Vaşinqtonun Moskvaya münasibəti dəyişmiş, Ağ ev Kremli tərəfdaşı kimi görməyə başlamış və dərin yuxuya getmişdi. Putin ötən ilin fevralın 24-də Ukraynaya qarşı geniş miqyaslı müharibəyə başlamaqla və ABŞ-ı təhdid etməklə yatmış nəhəngi oyadıb. İndi onun intiqamı dəhşətli olacaq. Rusiyanın faciəsi isə ondan ibarətdir ki, marşal İsoroku Yamamotodan fərqli olaraq polkovnik-leytenant Putin bunu anlamayıb.

*Xəqani Cəfərli*

# "KREMLDƏ AGENTLƏRİMİZ VAR..."

## “Onlar bu müharibəyə qarşıdırlar”

Putinin ətrafında müharibəni dəstəkləməyənlər var, onlardan bəziləri bizimlə əməkdaşlıq edirlər.

Ukrayna KİV-i xəbər verir ki, bu barədə Ukrayna hərbi kəşfiyyatının nümayəndəsi Andrey Çernyak “İefimerida” nəşrinə açıqlamasında danışıb.

O, bildirib ki, Ukrayna hərbi kəşfiyyatı Kremlin yuxarı eşalonundan məlumat alır.

*“Baş Kəşfiyyat İdarəsi minlərlə mənbədən daxil olan məlumatları idarə edir. O cümlədən Rusiyada olan agentura şəbəkəsindən də məlumat alır. Müharibədə biz qanunun yol verdiyi bütün vasitələrdən istifadə edirik. Biz, hətta Putinin ən yaxın ətrafı ilə əməkdaşlığın da mexanizmini tapmışıq. Bu adamlar ölkələrində heç bir şübhə doğurmurlar, hamısı "böyük Rusiya”nın qatı tərəfdarları kimi tanınır”*, - Çernyak danışıb.

O, qeyd edib ki, Putinin ətrafında onun Ukrayna siyasətini dəstəkləməyən kifayət qədər adam var.



*“Onlar bu müharibəyə qarşıdırlar. Lakin inandırıcı deyil ki, onlar bunu Ukraynaya dost münasibəti hiss etdiklərinə və ya ümumiyyətlə müharibəyə nifrət etdiklərinə görə edirlər. Bunu özlərinin şəxsi maraqlarına görə edirlər. Hansısa öz həyatını, hansısa öz pulunu xilas etmək üçün. Ukraynaya müdaxilədən sonra bəziləri sürətlə öz təsir gücünü və pullarını itirməyə başladı. Bu önların xoşuna gəlmir”*, - hərbi kəşfiyyatın nümayəndəsi əlavə edib.

Çernyak deyib ki, həmin adamlar indi hansısa inqilabi addımlara hazır deyillər, amma Putin hakimiyyəti itirərsə, onu məhv edəcəklər.

# Türkiyədəki zəlzələ Azərbaycanda baş versə...

## Hündürmərtəbəli binalarda yaşayanları fəlakət gözləyir



*Tapdıq ABBAS*
*Baş redaktor,*
*“Əməkdar mədəniyyət işçisi”,*
*Pedaqoji fəlsəfə doktoru,*
*Qarabağ müharibə veteranı*
*t.abbas1952@list.ru*

**Türkiyənin Kahramanmaraş və digər on əyalətində baş verən zəlzələ hündürmərtəbəli binaların tam yarasız olduğunu üzə çıxardı. 7, 7 və 7, 6 bal gücündə baş verən 2 zəlzələ nəticəsində 13,5 milyon insan yaşayan ərazidə çox ağır faciəyə səbəb oldu. Dağılan və çökən binaların zəlzələyə dözməməsi binaları tikən şirkətlərin buraxdığı səhvlər üzündən kütləvi insan ölümü ilə nəticələndi. Hökumət səhv etdiyini gec də olsa, anladı və kütləvi insan ölümünə yol açan yararsız hündürmərtəbəli yaşayış binalarını inşa etmiş şirkətlərin rəhbər şəxslərini həbs etdi. Bu həbslər “daldan atılan daş” effekti versə də, hər halda, baş verən hadisəyə görə, hökumətin məsuliyyətini qətiyyən azaltmır.**

Adətən dünyanın hər yerində hündür mərtəbəli yaşayış binalarının tikilməsi strateji məsələ kimi, dövlətin ciddi nəzarət altında gedir. Dövlətin tikinti üçün müəyyən etdiyi şərtləri yerinə yetirməyən tikinti şirkətlərinə yaşayış binası tikməsinə icazə vermir. İcazəsiz tikinti aparan şirkətlər müəyyən edildikdə isə, həmin şirkətlərə ən ağır cəza verilir.

Gəlin, Azərbaycanda son illər tikilən hündürmərtəbəli yaşayış binalarının vəziyyətini Türkiyədə baş vermiş 7,7 və 7,6 bal gücündə zəlzələyə davamlılığı ilə müqaisə edək. Bəri başdan qeyd edim ki, ölkəmizin baş seysmoloqu Qurban Yetirmişli bu günlərdə Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar ölkə televiziyalarına verdiyi müsahibədə bildirdi ki, son illər Azərbaycanda tikilən hündürmərtəbəli yaşayış binaları neçə bal gücündə zəlzələyə dözümlü olduğu müəyyən edilmədən istifadəyə verilib.

Azərbaycanda bütün növ tikilən binaların keyfiyyəti və zəlzələyə davamlılığını müəyyən edib, istifadəyə icazə vermək səlahiyyəti Fövqəladə Hallar Nazirliyinə verilib. Lakin, hətta zəlzələ olmadan belə, Bakıda yeni tikilmiş binaların uçma təcrübəsindən çıxış edərək, ehtimal edirəm ki, Azərbaycanda, o cümlədən çoxmərtəbəli yaşayış binalarının sürətlə tikildiyi şəhərlərdə 7 bal gücündə zəlzələyə davam gətirəcək binaların tikilməsinə inanmaq mümkün deyil.

Rüşvət və korrupsiyanın bütün sahələri təpə-dırnaq bürüdüyü Azərbaycanda hündürmərtəbəli yaşayış binalarının rüşvətsiz və qüsursuz tikilməsinə inanmaq qeyri-mümkündür. Ölkədə hündürmərtəbəli yaşayış binalarının tikintisi və satılması sahəsində mövcud olan çoxsaylı cinayətləri mübahisələndirməklə məşğul olan məhkəmələr hələ də işləri yekunlaşdıra bilmirlər. Yağışdan sonra çıxan göbələk kimi, çoxalan MTK-lar yüksək ballı zəlzələyə davamlı binalar tikmələri bir yana, dələduzluqla məşğul olan MTK rəhbərləri camaatdan aldığı milyonlarla pulu mənimsəyir və dələduzluq məqsədilə bir neçə adama satılan evlərin pulunu geri qaytarmaq istəmirlər. Bu işdə məhkəmələrin də dələduzlara şərait yaratdığını nəzərə alsaq, vəziyyətin nə qədər dözülməz olduğu ortaya çıxar. Əgər ölkədə bu sahədə mövcud olan cinayət işlərinə nəzər yetirsək, başımız gicəllənər, hüşümuzu itirmək məcburiyyətində qalarıq.

Qayıdaq mətləbə. Yəqin yaşlı və orta yaşlı insanların xatirindən çıxmayıb. Bakı şəhərində sonuncu dəfə olan zəlzələ 2002-ci ilin noyabr ayında 5.6 bal gücündə baş verib və həmin zəlzələ nəticəsində hündürmərtəbəli binalardan uçanı olmasa da, xeyli binalar zədələndi, yalnız köhnə binalara ciddi ziyan dəydi. Bu nəticə ölkədə dövlətin nəzarətindən kənar tikilmiş hündürmərtəbəli yaşayış binalarının yüksək bal gücündə baş verə biləcək zəlzələyə davam gətirəcəyinə heç cür əsas vermir və artıq belə nağıllara xalq inanmır.

Düşünürəm ki, Azərbaycan hökuməti tikilib istifadəyə verilmiş bütün hündür çoxmərtəbəli yaşayış binalarını yubanmadan, təcili olaraq möhkəmlətmək və zəlzələyə davamlılığını müəyyən etmək üçün ciddi tədbirlər görməlidir. Bu zaman hər kəs rüşvət almağı özünü və xalqı məhv etməyə razılıq verirmiş kimi qəbul etməlidir. Zəlzələyə davamlıq dərəcəsi zəif olan binalarda mümkün möhkəmləndirmə işi aparılmalı və ya binanın xırda təsirdən uçmaq təhlükəsi varsa, həmin binada yaşayan insanlar üçün yeni bina tikilməsinə göstəriş verilməli, zəlzələyə davamsız tikinti aparmış şirkət rəhbəri barədə ciddi cəza tədbirləri görülməlidir.

Əks təqdirdə, Türkiyədə baş verən zəlzələnin Azərbaycanda təkrarlanmayacağına ümid edərək, xalqın kütləvi məhv olması ehtimalının gerçəkləşməyəcəyinə məsuliyyətsiz yanaşmaq ən böyük cinayətə əl atmaqdır..

# ZƏLZƏLƏ VƏ İNSANIN QƏDƏRİ

**1) ZƏLZƏLƏ deyir ki...**

- Binaları uyğun yerdə tikin, fay-qırılma xətləri üzərində ev tikmək olmaz;

- Binaları keyfiyyətli, ölçülərə uyğun tikin;

- Binaların arasında zəruri məsafə, toplanma yerləri olsun;

- İnsanlara zəlzələ şüuru verin – zəlzələ anında nə edəcəyini bilən insanın yaşamaq imkanı artar;

- Məsuliyyətinizi qədərin üzərinə atmayın;

- Faciənin nəticələrini ortadan qaldırmağın yolu yardımlaşmaqdır;

**7.7 ÖLÇÜSÜNDƏ ZƏLZƏLƏ ÖLDÜRMƏZ...**

- Daşı;

- Qumu;

- Sementi;

- Dəmiri satmaq öldürər;

- Keyfiyyətsiz tikinti materiallarından istifadə öldürər;

- Tikinti üçün yanlış yer seçmək öldürər;

- İşini bilməyən, vicdansız mühəndis öldürər;

- Yarıtmaz, məsuliyyətsiz idarəçi öldürər;

- Haram, rüşvət, tamah öldürər;

- Hər şey insan üçündür anlayışının olmaması öldürər;

- Məsələyə elmi yanaşmamaq öldürər;

**ZƏLZƏLƏ DEYİR Kİ, AZƏRBAYCAN XALQININ ...**

- ən güclü duyğusu mərhəmətdir;

- vicdanı diridir – insanların acısını hiss edir, yaşayır;

- mayası sağlamdır;

- duyğusaldır;

- insani yönü güclüdür;

- fədakardır;

- mənə nə demir, məsuliyyətli davranır, nə edə bilərəm deyir, iş görür;

- yasda daha tez birləşir, təşkilatlanır;

- çətin gündə də ümidini itirmir – acını imkana çevirməyə çalışır;

- paylaşma mədəniyyəti var;

- duanın gücünə inanır;

- milli, dini kimliyinin formalaşması sürətlənmişdir;

- Türkiyəni ayrılmaz bir parçası sayır – üç gündür ki, Türkiyə ilə nəfəs alır;

- Türkiyənin Azərbaycan üçün dəyərini bilir;

- Milli birliyin gücünə inanır, deyir ki, fəlakətlərdən qurtulmağın yolu birləşməkdir;

**RƏSULZADƏ yazırdı ki...**

- Çanaqqala savaşı zamanı Azərbaycan xalqının igid övladları Anadolu türklərinə yardım etmək üçün UÇURDULAR;

- Məhəmməd Əmin Bəy məhz "UÇMAQ" feilini seçərək Azərbaycan xalqının əziz türk millətinə böyük sevgisini, sarsılmaz qardaşlıq duyğusunu, qurtuluş mücadiləsini ifadə etmişdir;

- Bu gün mərhəmətli Azərbaycan xalqı Çanaqqala ruhu ilə yaşayır, gerçəklik budur ki, Türkiyənin qurtuluşa ehtiyacı var, bunun yolu da birlik, qardaşlıq, davamlı yardımdır;

- Dar və zor günlər yaşayan mərhəmətli TÜRK xalqı suriyalı qardaşlarımızı da unutmur, imkanları ölçüsündə onlara da yardım edir;

**TÜRKİYƏ FƏLAKƏTƏ QALİB GƏLƏCƏK...**

- BÖYÜK TÜRKİYƏ DÖVLƏTİ özünü topladı, Ərdoğan zəlzələ bölgələrinə getdi, ordu, polis vəziyyəti nəzarətə götürdü, dünyadan gələn yardımları əlaqələndirdi, xilasetmə işləri davam edir, çadırlar, səhra xəstəxanaları, apteklər qurulur, yeməklər bişirilir, su var, istilik sistemi qurulur, telefon bağlantısı təmin olunur, başqa vilayətlərə getmək istəyənlər uyğun vasitələr verilir... Azərbaycan, Yunanıstan, İsrail, o sıradan başqa xilasedicilər dastan yazırlar;

- TÜRKİYƏ DÖVLƏTİ əsla fəlakətə təslim olmaz, ümidini, gücünü itirməz, dar və zor gündə hərəkət bizdən, bərəkət Allahdandır, Allahın rəhməti, bərəkəti, salamı Türkiyəyə yardım edən insanların üzərinə olsun!

**ZƏLZƏLƏ VƏ İNSANIN QƏDƏRİ**

- Türkiyədə dağıdıcı zəlzələ oldu, zəlzələni tektonik silahlara, "dış güclərə", qədərə bağlayanlar, onun qiyamətin əlaməti olduğunu deyənlər, yazanlar var – Qurani-Kərim buyurur ki, son saat – ona yanlış olaraq qiyamət günü deyirlər, qiyamət dağılmaq, çöküş deyil, qalxmaq, qiyam etmək, ayaqüstə durmaqdır – birdən, gözlənilmədən, qəflətən gələcək. Gözlənilmədən gələn bir şeyin əlaməti olarmı, qiyamətin əlamətləri ilə bağlı olan hədislər uydurma deyilmi?;

- "Qədər" sözü də, "zəlzələ" sözü də ərəbcədir. "Qədər" sözünün əsas mənaları "qanun", "ölçü", "sistem", "nizam"dır, "təqdir etmək", "güc yetirmək", "sahib olmaq", "qiymət", "plan"... mənaları



da var – Qurani-Kərimdə "q-d-r" kökündən törəmiş sözlər 132 dəfə işlədilmişdir. "Zəlzələ" sözü də "titrəmə", "sarsıntı" mənalarını daşıyır;

- Zəlzələni qədərə, dış güclərə, tektonik silahlara bağlamağın heç bir elmi əsası yoxdur, uydurmadır, məsuliyyətdən qaçışdır, vicdansızlıqdır...;

- Qurani-Kərimin inşa etdiyi qədər anlayışının içi boşaldılmış, bu söz semantik terrora məruz qalmış, gerçək mənasını itirmiş, alın yazısı olmuş, insandan heç bir şey asılı deyil mənası yüklənmiş, cinayətləri gizləmək vasitəsinə çevrilmişdir;

- Allah buyurur ki, O, hər şeyi bir qədər, ölçü, qanunla yaratmışdır (54/49), Onun təsadüf adlı qanunu yoxdur, təsadüf olsa idi, elm olmazdı;

- Yaradılan hər şey bir ilahi qanuna bağlıdır, Günəşin, Ayın hərəkəti, suyun axması, küləyin əsməsi, çiçəyin açması, ürəyin, qaraciyərin, böyrəyin işləməsi ... bir qanunla gerçəkləşir, qanun, ölçü olduğuna görə elm var, əmək, arayış, təhsil, öyrənmə də var;

- Zəlzələ də bir qanun – ölçü ilə baş verir, onun da elmi, alimi var;

- Allah buyurur ki, zəlzələ olacaq – zəlzələ nəticəsində torpaq özünü yeniləyir, bütün mineral, müalicəvi sular zəlzələnin nəticəsidir, ey insanlar, o hər an ola bilər, sən işini bu qanuna uyğunlaşdır, tədbirli ol, tədbirsiz, əməksiz təvəkkül yoxdur;

- Allahın qədər qanunu insanı məsuliyyətdən azad etməz, əksinə, ona məsuliyyət yükləyər, belə olmasa idi, insana ağıl, iradə verilməsinin, Rəsullar, Kitablar göndərilməsinin, əməyin, mükafatın, cəzanın, cənnətin, cəhənnəmin, hər kəsə yalnız əməyinin qarşılığı var ayəsinin ... anlamı qalmazdı;

- Qədəri sadə misalla belə tanıda bilərəm: futbol oyununun qanunları var, bu qanunlar əsasında necə oynamaq, qələbə qazanmaq, məğlub olmaq futbolçudan asılıdır, qoşma, qəzəl janrlarının qanunları var, ancaq bu ölçülərə uyğun şeir yazmaq şairin ağlından, istedadından, qabiliyyətindən asılıdır, şahmatın qaydaları bəllidir, hər fiqurun hərəkət xətti var, ancaq necə oynamaq şahmatçıdan asılıdır, teatr tamaşasının, filmin senarisi var, hansı obrazı seçmək, onu necə oynamaq aktyordan asılıdır, sizə verilən imkanı xeyrə də, şərə də çevirə bilərsiniz, çünki iradəli varlıqsınız, savab da, günah da buna uyğundur;

- 7.7 ölçüsündə zəlzələnin olması qədərdir – bir qanunla baş vermişdir, ancaq zəlzələdə bu qədər insanın ölməsi qədər deyildir, qədərin-qanunun pozulmasının nəticəsidir, ölçüyə-qanuna-qədərə əməl etmək nemətə, onu pozmaq fəlakətə yol açar, bu qədər insanın ölməsi haramın, rüşvətin, elmsizliyin, məsuliyyətsizliyin, şüursuzluğun, qanunsuzluğun nəticəsidir, məsuliyyəti insanlara aiddir;

**ZƏLZƏLƏ deyir ki...**

- Fövqəladə Hallar Nazirliyinin təyinatına - hədəfinə və fəlakətin idarə olunması anlayışınıza yenidən baxın;

- Bu nazirliyin əsas vəzifəsi zəlzələdən, seldən, yanğından ... sonra nəticələri aradan qaldırmaq deyil;

- Zəlzələyə, selə davamlı binaların tikilməsinə, yanğınların baş verməməsinə nəzarət sistemi qurmaqdır – öncədən tədbirli olmaqdır;

- Önləyici tədbirlər zamanı sərf ediləcək xərclər bu tədbirlərin olmayacağı halda ortaya çıxacaq nəticələrin aradan qaldırılması üçün xərclənəcək sərvətdən təqribən yüz dəfə azdır;

- Önləyici tədbirlər hazırlasanız, insan itkisinin sayını, maddi, mənəvi zərərləri ən aza endirəcəksiniz;

- İlk addım olaraq gecikmədən Azərbaycandakı bütün binaları zəlzələyə davamlılıq indeksinə görə pasportlaşdırın;

- Yararsız binaları sökün, zəif binaları gücləndirin, gücləndirmək binanı uçurub yenidən tikməkdən daha az vaxt, daha az xərc tələb edir;

- Unutmayın ki, Azərbaycan da seysmik zonadır, hər insan Allahın əmanətidir, əmanəti qorumaq məsuliyyəti də sizə aiddir;



Siracəddin Hacı

# Dərin düşünsək həqiqətə çatarıq

## Türkiyədəki hadisə Lut qövmünün yaşadıqlarını xatırladır

Bu fani dünyaya nə qədər çox dəyər verərsən kainata sığmayacaq qədər böyük görünər. Elə ki, dəyərsiz bir şey kimi baxarsan, o zaman mikroskopla görüləcək dərəcədə kiçik olar gözündə. Ona görə də özümüzə bir yaxşılıq edək, həyatımızda yaşadığımız hər nə varsa şükür edək, qəlbimizi və qulaqlarımızı haram şeylərə bağlayaq.

Kainatda mövcud olan canlı-cansız bütün varlıqların və sistemlərin insan üçün yaradıldığını, ona xidmət etdiyini bilirik. Yəni heç bir şeyin təsadüfən əmələ gəlmədiyini, Allahın hər şeyi insan üçün ən uyğun şəkildə yaratdığına inanırıq. Lakin gördüyümüz şeylər üzərində durub düşünməsək, incəliklərə varmasaq yaşadığımız yerin nə qədər fövqəladə bir yer olduğunu dərk edə bilmərik.

Bunlar bildiklərimiz, eşitdiklərimiz olsa da, bir də nəticə çıxarmaq var. Nəticə çıxarmaq isə iradəyə bağlı məsələ olduğundan, sonuca yetmək hər kəsə nəsib olmur. Elə məsələnin əsli də budur.

Kainatda olan hər bir şeyin təməlində atom zərrəciklərinin olduğunu bilirik. Yəni istifadə etdiyimiz hər bir şeyin bu zərrəciklərindən toplanaraq maddə halında meydana gəldiyini. Amma bir də Allahın qüdrətinə inanıb, şahid olanların bu cansız varlıqların bir yerə cəmləşərək görmək, eşitmək, duymaq, qərar vermək, sevinmək, kədərlənmək kimi xüsusiyyətlərinin formalaşmasındakı rolunu düşünmək qədər dərinə varmaq da var. İmanlı kəslər bunun daha fərqli şəkildə dərin mənasını anlayır. Çünki zərrəciklərdən ibarət varlıqlardan bizi fərqləndirən bəşəri xüsusiyyətlərimizin formalaşmasında rolu olan bu prosesin necə baş verməsini bilməyin özü də çox maraqlıdı.

Bunları yaradıb cəm edən bir qüvvə var, bizə şah damarımızdan yaxın olduğunu bildiyimiz halda yenə də xislətimizdəki unutqanlıq öz işini görür. Xilaskarımız insanın unutqan olduğunu bilir, çünki hər şeyi bilən və görəndir. Onu gah Allah, gah Tanrı deyərək köməyə çağırırıq, dara düşəndə.

Tarixə nəzər salanda görürük ki, Allahın günah olaraq buyurduğu əməlləri hansı cəmiyyət adi hal hesab edibsə, o cəmiyyət məhv olub. Bu gün də dövlətlərin və xalqların həlakının ən böyük səbəbi elə günahın insanların gözündə günah olmaqdan çıxarılmasıdır. Ad, Səmud kimi qövmlərin aqibəti hər zaman aktualdı. Lakin günümüzdəki məsul olan kəslər hələ də Allahın əmr etdiyi həqiqət ətrafında düşünmək istəmirlər.Türkiyədə baş verənlər buna əyani misaldı.

Bəzi günahlar var ki, onlara qarşı çıxmaq rəsmi qanunlarda cinayət sayılır. Bir çox Avropa ölkələri eyni cinsdən olanların izdivacına qanunla izazə verir və bu iyrəncliyə qarşı çıxmağı isə rəsmən cinayət hesab edir.Bu fəlakətdi. Homoseksual adlanan bu iyrənc toplum utanıb gizlənmək əvəzinə, çal-çağırla meydan sulayırlar, özlərinə haqq-hüquq, imtiyazlar tələb edirlər. Onların dünyamızı fəlakətə sürükləyən günahkarlar olduğunu bildiyimiz halda susuruq, qanunlar bizi qorxutduğuna görə... Bu gün fəlakət yaşayan canım Türkiyədə bu baxımdan vəziyyət rəzalət halına gəlmişdi ki, nəticəni gördük. Yaradanı qəzəbləndirdik - naqis əmllərimizlə, olduğumuz kimi görünməməklə, düşüncəmizin ayrı, danışdıqlarımızın ayrı, hərəkət trayektoriyamızın isə tamamilə ayrı olmasilə...

Doğru haqqında danışıb, əyri yoldan getdik, xeyirdən danışıb, şərə xidmət etdik. Elə canım Türkiyə də bu baxımdan tam bir şeytan ölkəsinə dönmüşdü. Xarici qüvvələr hər vəchlə istəklərinə nail ola bilmişdilər, başlarını örtdürüb örtməli yerlərini açıqda qoymaq planını gerçəkləşdirmişdilər. Sonda sanki Allahın səbri aşdı, daşdı, fəlakət qopartdı...

Olanları yenidən şərh etməyə, niyə, necə, hansı səbəbdən olduğunu anlatmağa ehtiyac yoxdu. Məlum hadisəni demək olar ki, görməyən, eşitməyən qalmayıb. Mən də gördüm və görən kimi ağlıma bilirsiz ilk nə gəldi? İlk ağlıma gələn Lut qövmü ilə bəşəriyyətə, insanlığa, dünyaya Allahın verdiyi ibrət dərsi gəldi. Bəhs etdiyim ibrət dərsi verilən zaman belə bir nida gəlmişdi: "Kimsə dönüb arxaya baxmasın, onlar yandılar, sən yanma!". Bəli, ilk ağlıma gələn məhz onlar oldu. O kəslər ki, dəfələrlə peygəmbərləri tərəfindən xəbərdarlıq edilməsinə baxmayaraq ağılasığmaz əməllərlə məşğuluydular. Bu gün həmin murdar əməllərin eynisi baş verirsə də, heç olmasa qapalı şəraitdə, gizlində olur.Tək təskinliyimiz gizli və xəlvəti olmasına görədir.



Bəhs etdiyim hadisə əsrlər, qərinələr əvvəl Allahın kamil şəxsiyyəti və elçisi olaraq tanınan Lut isimli peyğəmbərin yaşadığı qövmün başına gəlib. Müqəddəs kitabda yazılır ki, Lut Sədum xalqına peyğəmbər olaraq göndərilmişdi. Oradakı xalqa İbrahimin dinini təbliğ etmək üçün vəzifələndirilmişdi. Onun peyğəmbər olaraq göndərildiyi Sədum xalqı çox çirkin işlər görürdülər. Onlar cinsi əxlaqsızlıqla məşhur idilər. Kişilər öz həmcinslərilə münasibətə girirdilər. Hazırda homoseksuallıq deyilir buna. Lut peygəmbər öz xalqına bu hərəkətlərindən çəkinməyi tövsiyyə edir, onlardan əvvəl belə bir davranışların olmadığını bildirir. Xeyiri olmur və nəticə fəlakətlə sonuclanır.

Bu gün Türkiyədə yaşananların səbəbini tam da o əhvalatda olduğu kimi, azacıq fərqlə həmin əqidəyə yaxın baiskarların üzündən baş verdiyini düşünürəm.

Bir vaxtlar böyük əhalisi olmuş, arxeoloqlara görə inkişaf və rifahının ən yüksək səviyyəsinə çatmış Sədum elinin ərazisinin bu gün viranə şəklində olduğunu görürük. Yaşıllıqları, məhsuldar əraziləri və su qaynaqları demək olar ki, yox dərəcəsindədi. Hansı ki, əhvalatdan əvvəl ora bölgənin ən yaşıl və ən məhsuldar zonası olub. Arxeoloqlara görə, həmin yaşıllıqlar sonralar böyük sarsıntı nəticəsində Ölü Dənizə çevrilib..

Əxlaqsızlığın ən son həddində olan camaatın vəziyyətini Kitab belə təsvir edir ki, onlar bu rəzil hərəkətləri hətta camaat içində edirmişlər.Əslində bu rəvayəti xatırlatmaqda məqsədim odur ki, əsrlər keçsə də hər bir dövrdə insanlar ibrət alsınlar deyə o qövmə göndərilən əzabın görüntüləri indiyədək qalsa da, lakin yenə də bundan dərs çıxaran yoxdu.

Gerçək islam alimlərinin əfvinə sığınaraq yazıram bunları. Məqsədim düşüncələrimi oxucularla bölüşməkdi, başqa heç nə.

### İBADƏT BƏHANƏSİ

İbadət rituallarını bacardıqca gizlində yerinə yetirməyə çalışan biri kimi, səxavətlə, ibadətin gizli olsun!-əmrinə ciddi şəkildə itaət etməyi vacib sayıram. Vacib ibadətləri yerinə yetirməkdə vərdişli olmaq çox yaxşıdı. Qurani-Kərimdə deyilir ki, ibadətlərin ən üstünü oxumaqdır. Ki, fikrim yanlış anlaşılmasın, türk toplumları bunu tərsinə çevirib, məqsədli şəkildə ibadətlərin ən üstünü namazmış kimi qələmə veriblər. Hələ baş örtüsünü demirəm, eynilə onu da bu ümmətin başına belə ediblər. Niyə belə düşünürəm? Ona görə ki, bir az irəli gedib araşdıranda görürük ki, türk toplumlarının başına bütün bəla və müsibətləri məscidlərin sayını artırmaqla gətirdilər. Xarici qüvvələr bu baş örtüsü, namaz və sayı bilinməyən məscidi bu gün də yorulmadan alət kimi istifadə edirlər.

Namazın təməl ibadət kimi formalaşması fikiri tarixə görə ilk dəfə Müaviyə tərəfindən başladılıb.O, hədis adlı uydurmalarla insanların düşüncəsinə müdaxilə edərək, gerçək insan haqlarını, mübarizə, çalışqanlıq, düzgünlük və ən əsası da oxumaq kimi dəyərlərdən təcrid edərək, islamı sadəcə namazqılma dini halına gətirib. Məsələnin ən narahatedici məqamı da elə burdan başlayır. O gündən bəri islam dünyası, xüsusilə də türk toplumları özünü toplaya bilməyiblər desək, yəqin ki yanılmarıq. Oxuduğumuz Quranda deyilir ki, mənim təməl ibadətim oxumaqdır. Oxu sözü ilə başlamağı bir yana, 7-8 ayələr də var ki, orada deyilir ki, məhz oxumağı təməl ibadət edin. Lakin Müaviyə bu fikirləri tamamilə kənarlaşdıraraq, onun yerinə təməl ibadət kimi namazı qoydu. Məsələn, bu gün oxumağı təməl prinsip kimi qəbul edən inkişaf etmiş Qərb ölkələrinə də baxaq, namazı təməl ibadət sayan Orta Şərqə də baxaq, sonra dönüb Türkiyəyə də baxaq. Türkiyəni bu mənada məqsədli şəkildə tam bir şeytan ölkəsinə çeviriblər. Yəni din adına şeytanın tanrılaşdığı ölkə halına gəlib, bugünkü Türkiyə. Niyə belə düşünürəm? Ona görə ki, hazırda islam toplumundakı məscidlərin cəmi sayından daha çox sayda məscid Türkiyədə var. Bu gün Türkiyədə 100.000-dən çox məscid var. Bu məscidlərin sayı artdıqca canım qardaş məmləkətdə hər cürə pisliyin də sayı gündən-günə artır kimi görünür.

Əvvəl Lutun nəsihətlərini eşitməyənlərin başına gələnləri qısa və ötəri xatırladaraq, sonra canım Türkiyəni misal gətirməyim təsadüfü deyil. Baxdıqca ürəyimizi sızıldadan zəlzələ hadisəsindən zərər görmüşlərin ahu-zarı, dağılmış binaların dəhşət saçan görüntüləri bu gün onu deməyə əsas verir ki, azğınlaşmış bir qurupa görə qosqoca ölkənin az qala altı üstünə çevrilə.

Uzaqdan baxanlara Türkiyənin bir nömrəli bəlasının terror olduğu görünsə də, əslində bu belə deyil. Bir nömrəli bəla oradakı saysız-hesabsız dinçi dinsizlik oyunlarıdır. Nədən? Çünki ictimai hüquqların pozulması, yoxsulu, yetimi, möhtacı xorlayan, onların həyatlarına biganə qalan, sosial haqqları pozan həmin bu "dinçilər"in Allahsız əməlləridir. Onlar eyni Azərbaycandakı kimi müqəddəs kitabı din nağıllarına çevirməkdə hələ də davam edirlər. Öz məqsədləri üçün namazı əldə əsas tutub, vacib ibadət yerinə qoyub insanları aldatmaqdansa, bundan sonra daha da betər hallar yaşamadan sadə, məzlum xalqa gerçəkləri anlatmaq lazımdır. Bunu etməyin vaxtı çoxdan çatıb, hətta keçməkdədir. Bugünkü zəlzələ bir mesajdır.

Məscidlərin sayına gələk. Qurani-Kərimdə Maun surəsində deyilir ki, insanlığa zərər verən məscidlər olacaq. Bu günkü məscidlərin hamısı deyilən zərərə xidmət edir. Məsələn imam statusuyla insanların önündə durub namaz qılan adam niyə maaş almalıdır? Bəlkə biz yanılırıq, bilən varsa fikirini eşitməyə hazırıq. Məgər bu günah deyil? Məncə o cür qılınan namazların heç biri Allah qatında keçərli deyil.Tanıdığım Türkiyə və Azərbaycanda olan məscidlər haqqında deyirəm bunları. Bu iki ölkədəki islam adına,din adına ləkə gətirən ritualların yerinə yetirildiyi məscidlərə gedir zaman-zaman haqqımızdan kəsilmiş pullar. Vergi adılə tutulmuş pullardan yararlanıb nə bir sanatoriyaya, nə hansısa müalicəmizə gedə bilmirik, çünki putyovkalar yüksək məbləğə imkanlılara satılır. Ölkənin Allahsız rəhbərləri haqqımızı bu şəkildə talan edir, Allah da onları yerlə yeksan edəcək. Haqqımız olanları məscidlərdə Allahdan xəbəri olmayanlara "xidmət haqqı" olaraq verilir. Haramları olsun. Maaş alaraq namazda imamlıq edən adamın ardında durub qılınan namaz haramdı, Allah deyir. Hələ indiyədək buna fətva verən nə bir müctehid olmayıb, nə də bir məzhəb. Yəni boşuna əyilib qalxırlar. Qurana və Yaradana imanı olanlar bu məscidlərə dəstək verməsin. 14-cü əsrdə Osmanlının gətirdiyi bu ənənə hələ də davam etməkdədir. Tarix deyir ki, bu Müaviyənin yaratdığı bir siyasi taktikaydı ki günümüzədək davam etməkdədi. Belə çıxır ki, bunu yerinə yetirənlər elə Müaviyənin ümmətləridir? Çünki onun yolu ilə gedirlər.

Bəli, əgər millət olaraq müsəlmanlıq iddiasındayıqsa, bu qorxunc bəladan qurtulmağımızın yeganə yolu ağıla, elmə, inkişafa xidmət edən gerçək Qurandan koordinatlar almaqdı, yoxsa çıxış yolumuz yoxdur kimi görünür.

Allahın verdiyi torpağın altında və üstündəki nemətləri xalq arasında bərabər bölməyən rəhbərlərin də, həmin rəhbərləri yalandan tərifləyənlərin də yeri cəhənnəmdir.

Türkiyənin başına gələnlərdən həm özləri, həm də Azərbaycan dərs almalıdı. Bunun tək bir yolu var. Allahın tələb etdiyi prinsiplərə uyğun yaşamaq. Yuxarıda qeyd etdiyim naqislik insanın şərəf və ləyaqətinə alçaqlıq gətirən haldı. Bu eybəcərliyə görə böyük bir toplumun cəzalandırılması onun nə qədər günah olduğunun göstəricisidi. Və bunu axır ki, insanlıq anlamalıdı. İndiyədək həlak edilən cəmiyyətlərin törətdikləri günahlar fərqli olsa da, müştərək tərəfləri haram və yasaq sayılanları hesaba qoymayıb keçmələridi. Bir az da gec deyilkən davranışlarımızda sərhəddi aşmayaq. Canım Türkiyənin başına gələnlərdən ibrət götürək. Çünki əxlaqi degenerasiya olunmuşlardan sığortalı deyilik. Heç kimin, heç kimə yardım edə bilməyəcəyi gün yaxındadır ya uzaqdadı bilmirik. Onlar yandılar, biz də yanmayaq. Müsibətlərdən nəticə çıxarmayanlara, yardım aparan maşınların yolunu kəsib quldurluq edənlərə Allah özünü daha hansı şəkildə göstərməlidir görəsən(?)-qoy bunun cavabını da onlar versin.



Şahnaz Salehqızı

# Zəlzələni ram edək, yoxsa ona hazırlaşaq?

## "Elim dalınca Çinə də getmək gərəksə, gedin!"

**Bu gün Türkiyədə və Suriyada baş verən zəlzələ dalğası bütün dünyanın gündəmini zəbt edib. Zəlzələdən zərər çəkmiş ərazi Qafqazdan iki dəfə böyükdür. Həmin ərazidə on beş milyona yaxın əhali yaşayırdı ki, onun 200 mindən çoxu həyatını və ya sağlmlığını itirdi.**

Bu təbii fəlakət bir daha göstərdi ki, bəşəriyyət təbii - İlahi qüvvə qarşısında hələ çox acizdir. Fikrimizcə, bəşər övladı nə qədər inkişaf etsə də, İlahi qüvvə qarşısında həmişə aciz olaraq qalacaq. Bu həm elmi baxımdan məntiqlidir, həm də dini baxımdan doğrudur.

Sovetlər dönəmində bir şüar var idi - sovet insanı təbiəti ram edir! Bu ateist bir şüar idi, təbiət, yer, göy, ən nəhayət təbii fəlakətlər şəklində görünən güc elə Allahın gücüdür. O gücün ram edilməsi ideyası, əstəğfürullah, elə Allahın ram edilməsi deməkdir. Bu isə mümkün deyil. Ona görə də bəşər övladı - insan bu İlahi gücləri ram etmək haqqında baş sındırmaqdansa, bu təbii fəlakətlərlə birgə yaşamağın, həyatda qalmağın, ən azı ondan az itkilərlə çıxmağın yollarının axtarılması haqqında daha çox düşünməlidir. Bu istiqamətdə isə kifayət qədər düşüncələr, elmi araşdırmalar və onların real nəticələri artıq ortadadır. Bizim dinsiz-imansız adlandırdığımız Çin və Yaponiya bütün dünyaya bariz nümunədir.

İslam hədislərindən birində belə bir deyim var: "Elim dalınca Çinə getmək gərəkirsə, gedin". Bəziləri elə bilir ki, bu deyim Çinin məkan olaraq İslam coğrafiyasından uzaq olduğuna görə yaranıb. Əslində isə bu aforizm İslam camiyəsi tərəfindən Çini dinsiz bir məmləkət sayıldığına görə yaranıb. Bu yerdə aydın olur ki, Qurani-Kərimdə "elm" dedikdə heç də yalnız hədislərin toplanması və öyrənilməsi, şəriət qanunlarının yaradilməsi, Quran-Şərifin ayələrinin təfsiri və s. deyil, həm də dünyavi elmlər nəzərdə tutulur. Çünki gedib Çində yuxarıda qeyd etdiklərimizdən yalnız dünyavi elmləri öyrənə bilərsən, Çində o zaman din yox idi. O cümlədən də yaponlar eyni vəziyyətdədir - heç bir dinə etiqad etmirlər.

Amma Çin və Yaponiyada 9 bal gücündə zəlzələ Bakı küləyi kimi bir şeydi. Halbuki, qardaş Türkiyə və Suriyada baş verən zəlzələnin maksimum amplitudası 12 ballıq Rixter şkalası üzrə 7,8 bal idi. Lakin bundan 1,2 bal daha güclü zəlzələni adi hadisə kimi qarşılayan Çin və Yaponiyaya rəğmən burada - dinini olan məkanda insan itkisi onminlərlədir. Buradan belə bir nəticə çıxır ki, heç də Allah yalnız Ona gündə min dəfə ibadət edənləri deyil, daha ağıllı insanları sevir. Bəzən biz yanlış olaraq Allahı insana bənzətdiyimiz kimi, onun hisslərini də insan hissləri ilə eyniləşdirməyə cəhd edirik. Amma İslam özü və gördüyümüz həyat təcrübəsi göstərir ki, bu belə deyil. Biz Allaha yalnız yalvarmaq, ibadət etmək və Ona yaltaqlanmaqla heç də Onun sevgisini qazana bilmərik. Allah sevgisini qazanmaq üçün imanlı olmaqla yanaşı, həm də ağıllı, elmli olmaq vacibdir. Aydın şəkildə görünur ki, Allah Ona ibadət edən, lakin dünyəvi elmlərdən uzaq düsən müsəlmanlardan daha çox ağıllı, elmli, lakin Onun varlığını inkar edən insanları "daha çox sevir". Buna bariz nümunə yenə Yaponiya, Çin, Avropa və digər qeyri-İslam ölkələridir. Hansı ki həmin ölkələrdə dindən daha çox insanlar həqiqi elmlə məşğul olurlar, kəşfkər edir, bəşəriyyətin inkisafına töhfəkər verirlər. Baxın, bütün bəlalar və pisliklər İslam dünyasinin başi üzərində fırlanır, nədən? Ona görə ki, 14-cü əsirdən başlayaraq İslam dunyasının elmi yalnız "İslam dəyərləri orbitində" fırkanır. İslam "alim"lərinin hamısı birmənalı olaraq, dünyavi elmlərdən özünü təcrid edərək, yalnız dini dəyərləri araşdirmaqla məşğuldur.



İslam ölkələri sırasında hələ Türkiyə dövlət olaraq dünyəvi elmlərə daha çox üstünlük verən dövlətdir. Onun belə fəlakətlərdə itkisi onmillərlədirsə, İranda, Azərbaycanda, ərəb dünyasında və digər İslam ölkələrində belə təbii fəlakətlər baş versə, onların insan itkisi yüz minlərlə olacaq.

Yeri gəlmişkən, bir səhih hədisdə deyilir ki, səhabələrdən biri Məkkə şəhərinə İslam Peyğənbəri Həzrəti Məhəmmədi (s.ə.s) ziyarət etməyə gəlir. Səhabə Peyğənbərlə (s.ə.s) görüşəndə Həzrəti Məhəmməd (s.ə.s) ondan soruşur ki, dəvələrinizi bağladınızmı? Səhabə cavab verir ki, yox, bağlamadiq, Məkkə torpağında bizim dəvələrinizə zərər dəyməz, dəvələrinizi Allaha təvəkkül edib gəldik. Həzrəti Məhəmməd (s.ə.s) səhabəyə deyir ki, gedin dəvələrinizi ağlınız kəsən qaydada bağlayın, sonra Allaha təvəkkül edin! Bu hədisdəki hikmət odur ki, Allah (c.c) sizi aglınız kəsməyən bəlalardan qoruyar, aglıniz kəsdiyi bəlalardan isə siz özünüz özünüzü qorumalısınız. Ağıl, elm isə inkişaf etdikcə başımıza gələcək bəlaların daha çoxunu dərk etməyə imkan verir. Müasir İslam isə deyir ki, Qurani-Kərimdən, hədislərdən və şəriət qanunlarının inkişafından kənarda elm yoxdur. Məhz bu tendensiya İslam dünyasını dalana dirəyib.

Bütün bunları yazmaqla, biz heç də o qənaətdə deyilik ki, biz Çin və Yaponiyadakı kimi dinsiz-imansız olmalıyıq. Əsla, xeyir, dinimiz-imanimiz, ibadətimiz yerində olmalıdır. Amma biz seyid cəddinə arxayın olan kimi, yalnız ibadətimizə, imanımiza arxayın olub, dünyəvi elmlərdən uzaqlaşmamalıyıq. Din alimlərimizin hər biri ən azı bir dünyəvi elmin alimi olmalıdır. Dünyəvi elmlərdən heç olmasa birini akademik şəkildə dərk edə bilməyən kimsə din alimi, müctehid ola bilməz.

Məsələn, Azərbaycanın ən böyük din alimi Rafiq Əliyev və onun kimilər olmalıdır. Çünki belə adamlar dünyanı elmi əsaslarla dərk edir. Belə alimlər dini öyrənib, cəmiyyəti həqiqi dinlə marifləndirməli, dini xurafatdan təmizlənməlidir. Yoxsa şeyxlər var ki, vurma cədvəlini, ismin tərifini, Pifaqor teorimini, dünyanin xəritəsin belə bilmir.

Bütün deyilənləri yekunlasdırsaq, biz bilməliyik ki, yalnız ibadətlə başımızı qamamalıyıq, dinimi, imanimız, ibadətimizlə bahəm, elmimizi inkişaf etdirib, üstümüzə gələn bəlalara qarşi elmlə silahlnaraq mübarizə aparmalıyıq.

Bu işdə bəlalardan biri də İslam dünyası liderlərinin hakimiyyət, kreslo hərisliyidir. Bəlkə bu da elə elmsizliyimizdən irəli gəlir. Müsəlman dünyasında 20, 30, 40, hətta, 60 il hakimiyyətdə qalan "imanlı" hökümdarlarımız var. Bu yolverilməzdir, iki müddətdən sonra özünəvurğunluq xəstəliyi hökümdari xalqa qarşı çevirir, klançılıq, qohumbazlıq, yerlibazlıbazlıq, rüşvət, korrupsiya və s. harama meyillər çiçəklənir. Bu isə cəmiyyəti və dövləti inkişafdan saxlayır, görülən işlərin keyfiyyətini bu bəlalar aşırı dərəcədə aşağı salır. Nəticədə ölkə vətəndaşlari od qiymətinə keyfiyyətsiz betonla, yalançi kalonlarla tikilən mənzillər almaq məcburiyyətində qalır.

Yeri gəlmişkən bir məsələyə diqqətinizi çəkim, haramın bəşəriyyətə bəla olduğu yalnız dini deyil, həm də səlis məntiqlə sübut olunan məsələdir.

Məsələn, Azərbaycanda mənzillərin ağilagəlməz dərəcədə bahalaşmasının əsas səbəbi tikinti şirkətlərinin dövlət orqanlarına verdiyi rüşvərtdir (bu haramdı). Şirkətlər mənzilləri keyfiyyətli tiksə də, keyfiyyətsiz tiksə də, layihənin qəbul edilməsindən tutmuş, binanın istifadəyə qəbuluna qədər bütün yoxlama komissiyalarına birmənalı olaraq rüşvət (haram) verir. Belə olan halda, şirkətlər avtomatik olaraq daha çox qazanmaq üçün düşünür ki, onsuz da rüşvət (haram) verirəm, keyfiyyəti asaği salmaqla xərclərimi azaldım, qoy mənfəətim çoxalsın. Belə də edirlər - rüşvət alan (haran yeyən) məmur binanın keyfiyyətini, zəlzələyə davmlılığıni yoxlamadan binanı istifadəyə yararlı kimi sənədləşdirir. Bu sxem Bakıda 20 ildən çoxdür işləyir. Allah göstərməsin, Türkiyədə baş verən zəlzələ Bakıda olsa, 25 noyabr 2000-ci ildən (sonuncu ən güclü zəlzələdən) bəri tikilən binaların 90 faizi keyfiyyətsiz tikildiyininə, qalanları isə artıq istismar müddətini başa vurduğuna görə çökəcək. Bunu hamı bilməli və başına çarə qılmalıdır!



Akif Nəsirli

# Oxunmayan qəzetlər, oxunan yazarlar

## Azərbacan oxucusu nə üçün qəzet oxumur?

Dünya mediasında həyatımızın bütün sahələrində, ələlxüsus da televiziyalarda və idmanda olduğu kimi, peşəkarların transferi prosesi geniş vüsət alıb. Jurnalistlər də, idmançılar kimi yüksək məbləğdə ödənişlər müqabilində bir kanadan digərinə, yaxud bir qəzetdən başqasına keçirlər. Bu da həmin kanallara və qəzetlərə oxucu və tamaşaçı qazanmaq şansı verir. Azərbaycanda isə jurnalistin peşəkarlığını hansısa qurumlar-MŞ (Mətbuat Şurası), eks KİVDF (Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondu), indiki MİA (Medianın İnkişafı Agentliyi)- müəyyəiləşdirir. Amma nə yazıqlar ki, bu qurumların peşəkar elan etdiyi, mükafatlandırdığı jurnalistlərin yazdıqlarını oxucular oxumur. Belə olduğu təqdirdə isə medianın dövlət dəstəyinə ehtiyacı yaranır.

Bildiyiniz kimi, bütün dünyada media demokratik cəmiyyətin formalaşmasında 4-cü hakimiyyət rolunu oynayır. Soruşuram, belə olduğu təqdirdə dövlət, yaxud hakimiyyət medianın inkişafını nə üçün dəstəkləməlidir? Buradan belə bir nəticə hasil olur ki, hakimiyyət medianı dəstəkləməklə, onun hakimiyyətə qarşı çıxışlarını zəiflətməyə çalışır. Azərbaycan kimi yenicə müstəqilliyə qovuşan ölkələrdə isə bu kimi dəstəklə media məmurlarının köləsinə çevrilir. KİVDF-nin müsabiqələrini xatırlayın, yaxud MŞ-nın "qara siyahı"sına diqqət edin. Burada hər şey açıq-açığına ortadadır.

Bu səbəbdən də oxucuların mediaya inamı yox dərəcəsinə çatıb. Eyni vəziyyət həm də telekanallarda müşahidə olunur. Mən həmin kanalların özlərinin keçirdiyi sorğulara diqqət etmişəm. Burada vətəndaşların böyük əksəriyyəti etiraf edir ki, Azərbaycan telekanallarını izləmirlər. Mən son on ildə dəfələrlə həm oxucularla, həm də qəzet satışı və yayımı ilə məşğul olanlar arasında sorğular keçirmişəm və qəzetlərin nədən oxunmadığını aydınlaşdırmağa salışmışam.

Ən əsas səbəb bilirsiniz nədir? Azərbaycan oxucusu, tamaşaçısı oxumaq və görmək istədiklərini nə qəzetlərdə, nə də telekanallarda tara bilmirlər. Bu səbəb, tənqidi medianın olmamasıdır.

Heç kimə sirr deyil ki, Azərbaycan cəmiyyəti nöqsanlar içində boğulur, amma nə qəzetlər, nə də telekanallar buna heç bir reaksiya vermir. Qəzetlərə, yaxud telekanallara göndərilən vətəndaş şikayətləri isə həmin qurumların "gəlir " mənbəyinə çevrilir. Vətəndaşın isə bütün ümidləri puça çıxır. O andan da, o, nə qəzet alıb oxuyur, nə də telekanallara baxır.

MŞ-ı və KİVDF yarananda həm oxucular, həm də qəzetçilərdə belə bir ümid işartısı meydana gəlmişdi ki, bu qurumların yaranması ilə mediada ciddi dönüş baş verəcək. Prezident İlham Əliyevin «Jurnalistlərin dostu» elan edilməsi isə bu qığılcımın alovlanmasına, medianın inkişafına, onun həqiqətən də cəmiyyətin güzgüsünə çevrilməsinə səbəb olmalı idi. Əfsuslar olsun ki, olmadı.

Sən demə, bu qurumların yaradılmasında məqsəd medianın inkişafına dəstək yox, azad və müstəqil medianı susdurmaqdır. Ə.Amaşovun və V,Səfərlinin rəhbərləri olduqları qurumların kordinatorları olan Əli Həsənov və Ramiz Mehdiyev azad mediadan, müstəqil sozdən o qədər qorxurdular ki, bunun qarşısını almaq üçün xüsusi plan hazırladılar. Bununla da, məhz Prezident İlham Əliyevin təklifi ilə yaradılan bu qurumların fəaliyyətini təmamiylə başqa istiqamətə yönəldərək, medianı inkişaf etdirmək əvəzinə onu tənəzzül bataqlığında boğdular. Bununla da Azərbaycanda müstəqil və azad medianın yerini yaltaq, riyakar və ələbaxan media tutdu. Bu səbəbdən də az bir müddətdə 20-30 min tirajla nəşr olunan qəzetlərin tirajı 3-5 minə, daha sonra isə xala-xətrin qalması (yəni KİVDF-dən aldıqları pulun hesabatı üçün) az bir miqdarda nəşr olunmağa başladılar, oxucu isə qəzetlərdən üz çevirdi. Bu gün Azərbaycanda nəşr olunan müstəqil (onlara müstəqil demək olarsa) qəzetlərin maksimum tirajı min nüsxəni keçmir. Açıq demək lazım gələrsə, həmin min nüsxənin də 800-900-ü qayıdışdır (maklatura). Həmin qəzetlərə rəhbərlik edən media (karitanları sözü artıq dəbdən düşüb) "generalları", "admirallar" isə bunun səbəbini bilsələr də, aldıqları yardım və digər imtiyazlardan məhrum olacaqlarından qorxaraq, səbəb kimi sosial və elektron medianı bəhanə gətirərək vəziyyətdən çıxmağa salışırlar.



Medianı tənəzzülə aparan səbəblərdən biri də, oxucuların yazılarını oxumaq istədikləri bir çox yazarların mediadan uzaqlaşdırılmasıdır. Hamıya məlumdur ki, son on ildə tərif yaza bilməyən bütün yazarlar mediadan kənar düşdülər və müxtəlif sosial plotformalarda özlərinə sığınacaq tapdılar. Onların oxucuları da bu üzdən sosial şəbəkələrə transfer olundular. Bu səbəbdən də bu gün özünə hörmət qoyan jurnalistlər dövlətdən dəstək alan media qurumlarında çalışmaq istəmirlər.

Digər mühüm səbəblərdən biri də media üzərində məmur senzurasının güclənməsi və jurnalistlərin hökumət, qeyri-hökumət kateqoriyalarına bölünməsidir. Hazırda bu bölgü çox qabarıq şəkildə mediada özünü göstərməkdədir.

Üçüncü bir səbəb dövlət məmurlarının jurnalistlərə münasibətdə sərgilədikləri riyakarlıq və ikili stsndartlar. Müstəqil jurnalistlərə qarşı qərəzçilik, təhdidlər və şantaj halları. Bütün bunlar jurnalistləri yazmaqdan çəkindirdiyi kimi, oxucuları da mediadan uzaqlaşdırır. Çünki" elin gözü tərəzidir", oxucu görür ki, müasir mediamızın məqsədi heç də cəmiyyətin güzgüsü olmaq deyil, öz ciblərini doldurmaqdır. Ona görə ki, dövlət adından dəstək adı ilə verilən rüşvət və imtiyazlar onlar üçün söz azadlığından və medianın imicindən daha yüksəkdə durur.

Medianı oxucuların gözündən salan səbəblərdən biri də, Azərbaycan media cəmeəsində tənqidi medianın olmamasıdır. Razıyam, ölkəmiz inkişaf edir, məmurlarımız son 30 ildə görünməmiş zirvələr fəth ediblər, kimi dindirsən, dünyanın çeşidli yerlərində mülkləri, bizneslər, milyonlarla paraları var, bu çox böyük inkişafdır, biz bununla fəxr etməliyik və edirik də. Amma bütün bunların fonunda, milyonlarla məhz həmin məmurların əməllərindən əzab çəkən bir xalq da var. Onların taleyindən kim yazacaq, kim danışacaq? Həmin o məmurlara kim «dur» deməlidir? Cəmiyyətdəki reallıqları jurnalistlər görmürsə, kim görəcək? Bəlkə düşünürsünüz ki, MİA-nın reysterinə düşməklə gözünüzə nur gələcək? Yox, gəlməyəcək. Həmin nur məmurların cibində, dəstək adı ilə verilən rüşvətdə deyil, hər bir jurnalistin daxilində, ruhunda olmalıdı.

Son zamanlar imkan daxilində bütün qəzetləri nəzərdən keçirməyə çalışıram və sözün açığı inkişafa doğru atılan addımların işartısını görmək istəyirəm. Amma və lakin... Heç bir media orqanında bir tənqidi yazıya rast gəlmirəm, olanları da məişət mövzusundan kənara çıxmır.

Bununla belə, hər birimizə məlumdur ki, Azərbaycan səhiyyəsi, təhsili, sosial xidmət sektoru dərin bataqlıq içindədir və çıxış yolunu belə axtarmaq fikrində deyil. Çünki bulanıq suda balıq tutmaq daha asan olur. Ölkəmizin icra strukturlarında, bələdiyyələrdə, kommunal xidmət sahələrində baş verən özbaşınalıqları bəyəm görmürsünüz? Bunlardan yazmağı kim sizə qadağan edir?

Vallahi deməyə söz tapmıram, 100 il əvvəlin yazarları bizdən daha ağır durumda olublar və yazmaqdan çəkinməyiblər. O Zaman Sabir əfəndinin yazdığının bir cümləsini indi yazsan, ya səni qoduqluğa salarla, ya da heç əhəmiyyət verməzlər ki, "kimdir ey onun yazdığını oxuyan". Çünki məmur diktaturasının hökmüran olduğu bir cəmiyyətdə demokratiyadan, insan haqq və hüquqlarından, söz və mətbuat azadlığından danışmaq çətin məsələdir. Ələlxüsus da, medianı həmin məmurlar "dəstəkləyirsə".

Onu da qeyd edim ki, bütün bu çətinliklərə baxmayaraq, yazan, deyən jurnalistlər var və oxucular da həmin imzaları axtarır, tapır və oxuyurlar. Amma həmin imzaları müasir Azərbaycan mediasında çalışmaları mümkün deyil.

Məsələn, nə üçün Aydın CANın yazdıqlarını minlərlə insan oxuyur, amma heç bir media orqanı onun yazılarını çap etmir. Bu səbəbdən də, Aydın CANı həbs ediblər. Yaxud, Azərbaycanda çox az adam yerli telekanallara baxır, amma Xural tv-nin tamaşaçıları onlardan daha çoxdur. Çünki Xural tv ölkənin 15 telekanalının deməkdən çəkindiklərini deyir. Buna görə də Əvəz Zeynallını həbs ediblər. Onlara qarşı hansı ittihamları irəli sürüblər bu başqa bir məsələdir. Əsas məsələ odur ki, bu insanları reallığı olduğu kimi ictimaiyyətə təqdim etdikləri üçün zindana atıblar. Azərbaycanda onminlərlə, yüzminlərlə oxucu ölkənin real vəziyyətini əks etdirən yazılar axtarır mediada, onları oxumaq istəyir. Biz isə həmin yazıları yaza biləcək peşəkarları müxtəlif adlar altında zindana atıraq. Bu yazıları nəşr edə biləcək müstəqil qəzetlərin isə nəşrinə qadağa qoyuruq.

**Və sonda.** Bu gün Azərbaycanın media məkanında "at oynadan" media "generalları" kimdir? Qəzetləri cəmi min nüsxə nəşr olunan və onunda böyük qismi geri qayıdan (maklatura)qəzet rəhbərləri. Hər gün nəşr olunan və 5-10 tanış- bilişdən başqa kimsənin oxumadığı həmin qəzetlərə dövlət büdcəsindən verilən pullar heyif deyil?

Bu yaxınlarda "Müxalifət" qəzetinin baş redaktoru Rövşən Kəbirli təklif etdi ki, oxunmayan qəzetlərə verilən vəsait dayandırılsın. Ölkəni bir çox media mənsubları da onunla həmrəydirlər və onu dəstəkləyirlər.

Bunu dəfələrlə yazmışam bir daha qeyd edirəm ki, Azərbaycan mediasına müstəqillik və azadlıq lazımdır, pul yox. İlk növbədə isə medianı məmur müdaxiləsindən azad etmək lazımdır.

MİA yarananda bir çoxları düşündü ki, nəhayət Ramiz Mehdiyev, Əli Həsənov erası sona çatdı, artıq media azad nəfəs alacaq. Görünəni isə odur ki...

***Yusif Seyid***



# Bazarda qiymətləri kim bahalaşdırır?!

## Gömrükdən büdcəyə daxilolmalar 25 faizdən çox artıb

Bəzən cəmiyyətdən fikirlər səsləndirilir ki, hökumət nə üçün bazarda qiymətlərin bahalaşmasını cilovlamaq üçün addımlar atmır? Hökumətyönlü iqtisadçıkar və dövlət məmurları isə buna cavab verir ki, bu sizə sovetlər dönəmi deyil, bizdə bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatında isə qiymətləri tələb və təklif tənzimləyir.

Elə isə hökumətə sual vermək lazımdır ki, bizdə bazar iqtisadiyyatıdırsa, onda bəs Tarif Şurası kimdi? Bazarın tən yarısının qiymətini Tarif Şurasi tənzimləyir və yarandığı gündən bəri bir dəfə də olsun qiymətlərin ucuzlaşması barədə qərar qəbul etməyib. Bu məsələnin bir tərəfi.

İkinci bir tərəfdən, oliqarxiyanin yaratdığı inhisar rəqabət mühitinin formalaşmasına imkan vermir. Hökumət isə inhisarçılığa qarşı mübarizə aparmaq əvəzinə, iqtisadiyyatın əsas hissəsini öz inhisarına alıb.

Digər tərəfdən, bazar iqtisadiyyatı saat mexanizmi kimi ideal işləyən ölkələrdə belə, hökumətin qiymətlərə "görünməz əl" vasitəsi ilə təsir etmək, rəqabət mühitini qızışdırmaq imkanları var. "Görunməz əl" dedikdə dövlətə ödənilən bütün növ vergilər, rüsumlar, aksizlər, gömrük ödəmələri, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi və dövlətin əlində olan digər maliyyə alətləri nəzərdə tutulur. Hansıki Azərbaycan hökuməti yaratdığı inhisarçılıq mühitində həmin alətlər vasitəsi ilə yalnız qiymətlərin bahalaşmasını stimullaşdırır.

Məsələn, ötən il Azərbaycanda vergi daxilolmaları 82%, o cünlədən gömrük daxilolmaları 50%-dən çox artıb. Burada çox maraqlı sual qoymaq yerinə düşərdi: vergilər, rüsumlar və gömrük daxilolmalarında müşahidə edilən artımlar özünu nədə göstərir? Əlbəttə, həmin artımların hamısı sonda özünü bazar qiymətlərindən büruza verir. Dövlətə ödəmələr artırsa, deməli sahibkarın satdığı məhsulun xərcləri artır. Xərclər artırsa bu maya dəyərinin şişməsinə gətirib çıxarır ki, bu da özünu bazarda qiymət artımı kimi təzahür edir.

Bu ilin yanvar ayı ərzində vergi daxilolmaları artıq 20%-dən çox arti

Cari ilin yanvar ayında Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə dövlət büdcəsinə 506 779,6 min manat həcmində vergi və rüsumlar daxil olub ki, bu da 2022-ci ilin eyni ayı ilə müqayisədə 25,4 faiz çoxdur.

DGK-nın dərc etdiyi göstəricilərə görə, cari ilin yanvar ayında dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 29,4 faiz artaraq 121 932,6 min manat təşkil edib.

Həmçinin, yanvarda ƏDV üzrə daxilolmalar illik müqayisədə 22,8 faiz artaraq 365 561,7 min manata yüksəlib.

Aksizlər üzrə göstərici yanvar ayında (ötən ilin eyni ayı ilə müqayisədə) 77 faiz artaraq 14 841,3 min manat, yol vergisi üzrə daxilolmalar isə 21,7 faiz artaraq 4 444,0 min manat təşkil edib.?

Deməli, bu ilin yanvar ayı ərzində daxili bazarda bahalaşmanin 25%-dən çoxu DGX-nin payına düşür. Sonra isə qiymət artımının səbəbini axtarırıq ki, bazarda qiymətlərin bahalasmasını kim körükləyir!

***Akif Nəsirli***

# Türkiyədəki zəlzələ bizim tikinti bazarına necə təsir edəcək?

**Türkiyədə baş verən zəlzələ Azərbaycanın tikinti bazarına 2-3 aydan sonra təsir edəcək. Bu barədə əmlak üzrə ekspert Ramil Qasımzadə bildirib.**

Onun sözlərinə görə, Türkiyədə baş vermiş zəlzələnin hələ ki, yerli bazara təsiri yoxdur: *"Xüsusilə də Türkiyədən idxal olunan santexnika, elektrik mallarının qiymətlərində dəyişiklik yoxdur.*

*Amma bir müddətdən sonra bu təsir hiss olunacaq. Belə ki, Türkiyədə 24 min binanın inşası gözlənilir. Həmin binaların yenidən inşa edilməsi üçün Türkiyədə yerli inşaat materiallarına tələbat artacaq. Ola bilər ki, həmin dövrdə bizim Türkiyədən idxalımız azalsın. Türkiyə özü müəyyən tikinti materiallarını hətta xarici ölkələrdən və bizdən də idxal edə bilər".*

Ekspert bildirib ki, hazırda Türkiyənin Malatya bölgəsindən ölkəmizə tikinti materiallarının, müəyyən məhsulların ixracı dayanıb, lakin digər bölgələrdən ixrac adi qaydada davam edir: *"Onu da qeyd edim ki, bazarda yetərincə tikinti məhsulları var. Bu da qiymətlərin stabil olmasına şərait yaradır. Yəni bazarda qıtlıq gözlənilmir. Mövsümlə əlaqədar mart ayından sonra tikinti bazarında tələbat artacaq. Ola bilsin ki, tələb artdıqca, qiymətlərdə də artım olsun".*

Lakin qeyd etmək lazımdır ki, tikinti materialları ilə əsas tədarük bazarımız Rusiyadır (sement, meşə materialları, rəngli divar kağızları, qum, taxta-şalban, faner), Türkiyədən isə əsasən lak və boyalar, əhəng gətirilir. Qips Gürcüstandan tədarük



edilir.

Bununla yanaşı Azərbaycan da tikinti maleriallarının istehsalçısıdır və sementi, taxta-şalbanı, lakı, boyanı, əhəngi və s. ixrac edir. Taxta-şalbanın əsas ixrac bazarı Türkiyədir, digər tikinti materiallarının böyük hissəsi Gürcüstana tədarük edilir. Ehtimal etmək olar ki, Türkiyə bazarında Azərbaycanın tikinti materiallarına da tələbat arta bilər.

Xatırladaq ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək yüzlərlə afterşoklar qeydə alınıb. Təbii fəlakət Türkiyə və Suriyada böyük dağıntı və minlərlə itkilərə səbəb olub.

İki zəlzələ həmçinin Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə hiss edilib.

Zəlzələ nəticəsində Türkiyədə 31 643 nəfər ölüb, 80 278 nəfər yaralanıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün ölkədə 7 günlük matəm elan edib. Bundan başqa, ölkənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb.

# Məktəblərdə bir çox fənlər formal keçirilir



*"Fövqəladə hallarla bağlı Azərbaycan təhsilinin üzərinə böyük iş düşür. Əvvəla şagirdlər, tələbələr, ümumiyyətlə, insanlarla təbii fəlakətlər zamanı özünü, başqasını qorumaqla bağlı geniş səviyyədə maarifləndirmə işləri aparılmalıdır".*

Bu sözləri açıqlamasında sosioloq-alim Əhməd Qəşəmoğlu deyib. Ötən həftə qardaş Türkiyədə yaşanan dəhşətli zəlzələ bütün dünyanın əsas gündəminə çevrilib. Təbii fəlakət nəticəsində bu dəqiqəyə olan məlumata görə 32 minə yaxın insan dünyasını dəyişib, 80 minə yaxın şəxs isə yaralanıb.

Təbii fəlakətdən heç bir ölkə sığortalanmayıb. Bəs belə arzuolunmaz hallara qarşı təhsil sisteminin üzərinə hansı işlər düşür?

Ə.Qəşəmoğlu bu məsələdə təhsil sisteminin rolunu xüsusilə qeyd edir: *"Gələcəkdə yaşanma ehtimalı olan fövqəladə hallarla bağlı Azərbaycan təhsilinin üzərinə böyük iş düşür. Əvvəla şagirdlər, tələbələr, ümumiyyətlə, insanlarla təbii fəlakətlər zamanı özünü, başqasını qorumaqla bağlı geniş səviyyədə maarifləndirmə işləri aparılmalıdır. Bu prosesdə təhsil sistemi mühüm rol oynayır. Çünki biz şagirdlərimizi, tələbələrimizi maarifləndirsək, onlar da öyrəndiklərini ətraflarında olan insanları məlumatlandıracaqlar.*

*... Bəzən deyirlər ki, bizdə güclü yanğın, zəlzələ və s. təbii fəlakət baş verməz. Amma bunların hər biri ölkəmizdə ola bilər. Üstəlik, şərt deyil ki, təbii fəlakət mütləq ölkəmizdə olsun. Bizim bugünkü şagirdimiz 2 il sonra başqa hansısa ölkədə ola, orada oxuya, yaşaya və arzuolunmaz halla qarşılaşa bilər. Biz insanları baş verə biləcək fəlakətə hazırlıqlı olmağı öyrətməliyik. Ətrafımızda xeyli təhlükəli proseslər cərəyan edir. Bu da biz istəsək də, istəməsək də cəmiyyət inkişaf etdikcə çoxalacaq. Hazırda Yerin tərkibində də prsosselər dəyişir. 1992-ci ildən bu yana Yerin ətrafında fırlandığı öz oxunda mayillilik yaranıb.*

*Daha sonra, elə götürək yoluxucu xəstəliklər, pandemiya və s. 2-3 aydan bir müxtəlif yoluxucu xəstəliklərin yayılması ilə bağlı xəbərlər yayılır. Bütün bunlara qarşı insanlarda davranış, özünü müdafiə başqasına kömək və s. üzrə maarifləndirmə işləri aparılmalıdır. Hələ bundan sonra hansı prosseslərin gedəcəyi məlum deyil".*

# Bakıda yaşamaq təhlükəlidirmi?

## Zəlzələ və məmur vicdanı

Türkiyədə baş verən və böyük insan fəlakəti ilə nəticələn zəlzələ, bu gün dünyada, eləcə də ölkəmizdə hər kəsi ciddi narhat edən əsas problemə çevrilib. Burada əsas narahatlıq yaradan amil isə tikililərin təhlükəsizliyidir. Yəni tikililər bütün normativ sənədlərə və qanunlara əməl edilərək tikilsəydi, faciənin miqyası bu qədər dəhşətli olardımı? Bu sualın cavabını birmənalı "hə", yaxud "yox" kimi səsləndirmək çox çətindir. Amma birmənalı demək olar ki, insan tələfatı bundan qat-qat az olardı. Ona görə də, bu gün Bakıda çoxlarını bir sual düşündürür. Bakıda yaşamaq nə dərəcədə təhlükəsizdir. Son günlər bu mövzuda çox müzakirələr aparılır, danışanların əksəriyyəti heç biri dəqiq demir ki, Bakıda yaşamaq təhlü-kəlidir, yaxud arxayın olun, hər şey qaydasındadır.

Məni bir vətəndaş və yazar olaraq daha çox sadə vətəndaşların düşüncələri maraqlandırır. Çünki hər hansı bir fəlakət baş verəndə ən çox əziyyət çəkən də, məhz sadə vətəndaşlar olur. Bir neçə gün ərzində görüşdüyüm insanların ümumi fikri belədir ki, Bakının bir sıra rayonlarında yaşamaq risklidir. Mən insanları narahat etməmək üçün həmin ərazilərin adlarını açıqlamıram, bu xüsusi dövlət qurumlarının vəzifəsidir. Amma bilavasitə tikinti sektoruna nəzarət qurumlarında birində çalışan bir vətəndaşın fikirləri diqqətimi çəkdi və onları sizə təqdim etmək istəyirəm:



*« -Bakıda sovet dönəmindən qalan evləri daha təhlükəsiz hesab edirəm, bir şərtlə ki, onların birinci mərtəbələrinə və zirzəmiyə müdaxalələr olmasın. Bu binalar Bakıda baş verən son zəlzələ zamanını da özlərini yaxşı göstərdilər. İkincisi, Fövqaladə Hallar Nazirliyi və onun nəzdində Tikintiyə Nəzarət Agent-liyi fəaliyyətə başladıqdan sonra tikilən binalara da etimad edirəm. O ki qaldı, müstəqilliyin ilkin dönəmlərində kimin harda istədi tikdiyi binalara, hesab edirəm ki, bu əsas təhlükə mənbəyidir. Buna görə də FHN təcili olaraq bu binaların ekspertizasını həyata keçirməlidir. Bunun üçün binaları sökməyə, yaxud hansısa fövqaladə tədbirlərə ehtiyac yoxdur, əsas məsələ, məmurların vicdanıdır. Bakının mərkəzində, eləcədə mikrarayonlarda, Yasamal, Nəsimi, Səbayel, Binəqədi, Nərimanov rayonlarında sovetdən qalan binaların əksəriyyətinin özülünə və zirzəmisinə sahibkarlar tərəfindən güclü müdaxilələr olunub. Bunun qarşısı alınmalı, həmin binalar yararsız hala düşüblərsə, sökülməlidir. Araşdırılmalıdır ki, sahibkarlar bu işləri özbaşına görüblər, yoxsa bunun üçün kimlərdənsə razılıq alınıb. Əgər belə faktlar varsa, onlara kimsə icazə veribsə, həmin şəxslər də eyni dərəcədə məsuliyyət daşıyırlar. Bir daha qeyd edirəm ki, istər FH naziri Kəmaləddin Heydərov, istərsə də tikintiyə nəzarət şöbəsinin rəisi yetərincə vicdanlı və xalqına bağlı insanlardır, amma bu strukturun özündə də, nəfsinə hakim ola bilməyən, vicanını itirmtş məmurların olmadığını demək çox çətindir. Hesab edirəm ki, son on ildə tikilən binalarda nəzarət daha ciddi həyata keçirildiyindən, həmin binaların daha etibarlı hesab etmək olar.»*

Həmsöhbətimin fikirləri ilə mən də qismən razılaşıram çünki, kim zəmanət verə bilər ki, bu və ya başqa bir binanın təhlükəsizliyini vicdanlı məmur ekspertizadan keçirib. İnsan nəfsi onun şüur və düşüncələrinə üstün gələndə, o artıq vicdanını itirmiş olur.

Sizə insan nəfsinin gücünü göstərən bir faktı açıqlamaq istəyirəm. Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində "Qurtuluş-93" MTK fəaliyyət göstərir. Bu tikinti şirkətinin qəhbəri hacı Məhərrəm adında bir şəxsdir. Bununla heç bir işim yox, hacı Məhərrəmi də nə görmüşəm, nə də tanışlığım var. Belə olduğu təqdirdə ona qarşı heç bir qərəzim də ola bilməz. Söhbət insan nəfsinin hüdüdsuzluğundan gedir. Bu şirkət fəaliyyətə başlayanda həmin ərazidə ancaq 5-6-7 mərtəbəli binalar inşa edirdi. Hacı varlandıqca, pulu artdıqca binaların hündürlüyü də artmağa başladı. Yəni "Yeni Bakı" yaşayış komrleksində artıq binaların hündürlüyü 8-9 mərtəbəyə çatdı. Eyni zamanda "Qurtuluş-93" MTK-nın əks istiqamətində 3 mərtəbəli binalar inşa olundu. Bu ərazilərdə tikinti qanunlarının və normativlərinin pozulduğunu heç kim iddia edə bilməz. Çünki istər binalar arasında yaradılan uşaq oyun- əyləncə yerləri, eləcə də yaşlıların istirahəti üçün nəzərdə tutulan xiyabanlar hər şeyin qaydasında olduğunu göstərir. Təkcə bir şey narahatlıq yaradır- binaların günü-gündən göydələnlərə çevrilməsi. Məlumdur ki, Masazır qəsəbəsi çox sayda sürüşmə zonalarına və qrunt sularının hərəkət zolaqlarına mənsub bir yaşayış məskənidir. Əslində, sovet dönəmində burada hündürmərtəbəli binaların tikintisinə yol verilməyəb. Ümumiyyətlə, sovet dönəmində Bakının özündə belə, cəmi bir neçə hündürmərtəbəli bina tikilib ki, onlarda yoxlama xarakteri daşıyıb. Bunlardan birincisi Statistika Komitəsinin yaxınlığındakı insanların "16 -mərtəbə" adlandırdıqları bina, ikincisi, "Şamaxinka" ərazisindəki bina və nəhayət, 80-cı illərin əvvəlində 9-cu mikrorayonun yuxarı hissəsində tikilən binalar. Bakıda tikilən ən hündür yaşayış binası isə xalq arasında "beşmərtəbə" kimi tanınıan binadır.

**Yazının sonunda bir daha diqqətinizə çatdırıram ki, bizim təhlükəsiz yaşamağımız məmurların vicdanından asılıdırsa, bu barədə ciddi düşünmək lazımdır.**



**Yusif Seyid**

# Abid Şərifov: "Yasamalda tikilmiş evlərdə zəlzələyə qarşı davamlılıq nəzərə alınmayıb"

*"Tarixi bilməyənlər də televiziya kanallarında, qəzetlərdə ağızlarına gələni danışırlar. Bunu mütəxəssis deməlidir. Düzdür, mən mütəxəssis deyiləm, ancaq bir şeyi dəqiq bilirəm ki, 1967-ci ilə qədər qəti olaraq Azərbaycanda, o cümlədən Bakı şəhərində tikilən binalarda zəlzələyə qarşı heç bir tədbir görülməyib, bu məsələ nəzərə alınmayıb. Başqa sözlə desək, guya Azərbaycan seysmik zona deyildi. Yalnız 1967-ci ildə Daşkənddə zəlzələ olandan sonra qərar qəbul edildi ki, xeyr, Azərbaycan, o cümlədən Bakı şəhəri "seysmik ərazidir". "Seysmik ərazi" Sovet terminologiyası ilə 12 balla ölçülürdü. Amma Sovetdən kənarda seysmologiya Rixter şkalası ilə 9 bala qədər ölçülür. İndi də xaricdə belədir. Bizdə isə bəzən elə də deyirlər, belə də... Məsələn, o vaxt Yasamalda tikilən panel evlərlə bağlı heç bir layihədə zəlzələyə qarşı davamlılıq nəzərə alınmayıb..."*

"Paralel.az" xəbər verir ki, bu sözləri müsahibəsində Baş nazirin keçmiş müavini Abid Şərifov deyib.

O bildirib ki, Azərbaycanda yalnız 1967-ci ildən sonra zəlzələ ilə bağlı tədbir görməyə başlayıblar: *"Həmin illərdə Bakı şəhərində dörd nəfərdən ibarət belə bir təşkilat var idi – Dövlət Tikintiyə Nəzarət və Arxitektura Komitəsi. Sədri və müavinlərindən biri yəhudi idi, başqa bir müavini isə erməni idi. Bir nəfər də azərbaycanlı var idi. Bunlar binaları yoxlayırdılar, bütün səlahiyyətləri var idi. Kim qaydaları nəzərə almırdısa, layihənin hesabından tuturdular. Onlara belə bir səlahiyyət də verilmişdi. Azərbaycanda qəbul olunmuş qaydalara görə, hər bir bina layihələndirilməmişdən əvvəl Respublika Seysmoloji Xidmət Mərkəzinə müraciət olunmalıdır ki, bina tikiləcək ərazi neçə ballıqdır. Bəzi əhəmiyyətli binaların, məsələn, xəstəxanaların, məktəblərin binaları bir bal artıq zəlzələyə davamlı tikilməlidir. Yəni 7 bala davamlı ev tikilirsə, onun yanındakı xəstəxana 8 bala davamlı tikilməlidir. Hazırda bu qaydalara əməl olunub-olunmadığını deyə bilmərəm".*



A.Şərifov Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişlinin inşaat şirkətlərinin 2019-cu ildən bəri Mərkəzə müraciət etməmələrinə, bu işə FHN-nin nəzarət etdiyini demələrinə də münasibət bildirib: *"Kim bunu deyirsə, səhv deyir. Torpağı alan sifarişçidir. Sifarişçiyəmsə, torpağı bələdiyyədən, yaxud aidiyyatı qurumdan alıram. Sonra sifarişçi funksiyalarını yerinə yetirməliyəm. Məsələn, yeddimərtəbəli bina tikməliyəm. Respublika Seysmoloji Xidmət Mərkəzinə müraciət edirəm, məlumatlarımı təqdim edirəm, soruşuram ki, aldığım ərazidə bina tikmək üçün neçə bala davamlı bina sifariş verməliyəm? Mərkəz də bunu təyin edir. Sonra buna uyğun layihə rəhbərinə, yaxud inşaat şirkətinə sifariş verirəm, zəlzələyə davamlılıqla bağlı Mərkəzin rəyini təqdim edirəm".*

O, Bakıda 20 mərtəbəli binaların tikilməsinin yanlış olduğunu deyənlərə isə belə cavab verib: *"Nəzərə almaq lazımdır ki, dünyada ən çox zəlzələ baş verən ölkələrdən biri Yaponiyadır, amma Yaponiyada 20-30 mərtəbəli binalar da var. Yəni zəlzələyə qarşı davamlılıq layihədə nəzərdə tutulursa, ekspertizadan keçirsə, tikiləcək binanın ərazisinin seysmik qaydaları Respublika Seysmoloji Xidmət Mərkəzi tərəfindən müəyyən olunursa, onda niyə 20 mərtəbəli bina tikmək mümkün olmasın? Təəssüf ki, bəzi hallarda bu qaydaları bir az pozuruq, ya ümumiyyətlə nəzərə almırıq. Ona görə də düşünürəm, yaqin ki, Türkiyədə baş verən fəlakətdən sonra bizdə birinci növbədə nəzarət güclənməlidir. Bakıda qəzalı evlər var. Məsələn, Moskvada Sovet dönəmində tikilən beşmərtəbəli panel evləri sökməyə başladılar. Birdən-birə sökülməsi ağlabatan deyil, amma yavaş-yavaş bizdə də qəzalı binaları söküb, yerində normal, zəlzələyə davamlı binalar tikmək lazımdır..."*



# MDB-də liderlik ...

## Pensiya yaşına görə

**Sosial Müdafiə Fondu artıq uzun illərdir manatın alıcılıq qabiliyyəti pariteti (AQP) əsasında MDB ölkələri, həmçinin Gürsüstanda orta və minimum pensiya məbləğlərinin reytinqini hazırlayır. Uzun müddətdir Azərbaycanın hər 2 göstərici (minimum və orta pensiya) üzrə lider olduğu mediada da tirajlanır.**

Məsələn, qurumun son hesablamasına görə nominal məzənnə (1 USD=1,7 manat) ilə minimum pensiya 165 dollar, orta pensiya 249 dollar olduğu halda, AQP-yə görə həmin göstəricilər müvafiq olaraq 424 və 599 dollardır.

Bunun sadə izahı odur ki, Azərbaycan pensiyaçısı cibində tutduğu pensiya məbləği ilə ABŞ-da eyni məbləğlərə alınan mal və xidmətlərdən ən azı 2,5 dəfə çox mal və xidmət ala bilir.

Sosial Fondun istifadə etdiyi bu metodologiyanın çox ciddi qüsuru var: manatın AQP əsasında real məzənnəsini pensiyaların, bütövlükdə əhalinin gəlirlərinin alıcılıq qabiliyyətinə münasibətdə istifadəsi yanlış yanaşmadır.

Çünki bu göstəricini Dünya Bankı ölkələr üzrə beynəlxalq dollar əsasında ÜDM-nin real həcmini müqayisə etmək üçün hesablayır.

Bankın "International Comparison Program" adlanan fəaliyyəti çərçivəsində hər bir ölkənin milli valyutasının alıcılıq qabiliyyəti hesablanır. Lakin bu göstəricinin bazasında ÜDM-ni təşkil edən minlərlə məhsul və xidmət dayanır.

ÜDM-ni formalaşdıran məhsul və xidmətlər isə təkcə istehlak deyil, həmçinin istehal təyinatlı məhsullardır. Üstəgəl, ÜDM bazasında real məzənnənin hesablanması yalnız ölkədaxili məhsul və xidmətlərə əsaslanır.

Halbuki sizin cibinizdəki pulun alıcılıq qabiliyyəti həm də idxal olunan malların qiymətindən asılıdır.

Əgər pensiyanın alıcılıq qabiliyyətini hesablamaq üçün obyektiv yanaşma istəyirsinizsə, insanların gündəlik ehtiyaclarını qarşılayan 50 adda məhsul və xidmətdən ibarət bir səbət düzəldin, bütün ölkələr üzrə eyni səbət əsasında alıcılıq qabiliyyətini hesablayın.

Daha bir vacib məqam: Azərbaycan əhalinin hər 1000 nəfərə düşən pensiyaçıların sayına görə, aşağı pillədə qərarlaşan ölkələr sırasındadır.

Məsələn, hazırda Azərbaycanda hər 1000 nəfər hesabı ilə 118 nəfərə pensiya ödənir. Amma bu göstərici Rusiyada 290, Belorusda 270, Ukraynada 265, Gürcüstanda 212, Moldovada 195, Ermənistan və Qazaxıstanda 155, Qırğızıstanda 122 nəfər təşkil edir.

Azərbaycan yalnız Tacikstan və Özbəkistandan öndədir pensiyaçı sayına görə.

Pensiyaçı sayının 2 dəfə az olması pensiya sisteminin maliyyə yükünün də 2 dəfə yüngül olması deməkdir. Yükün bu qədər yüngül olması Azərbaycanın indiki maliyyə şərtlərində daha yüksək məbləğdə pensiya təmin etməsi üçün imkan yaradır. Pensiyaçıların sayının az olmasının əsas səbəblərindən biri, heç şübhəsiz pensiya yaşı ilə bağlıdır. Hazırda Azərbaycan həm də pensiyaya çıxma yaşına görə də MDB-nin lider ölkəsidir

**P.S əvəzi**

Orta pensiyanın yüksək olması neqativ səbəbdən qaynaqlana bilir. Məsələn, gəlir qeyri-bərabərliyinin yüksək olduğu şəraitdə ən yüksək maaşa malik 10%-lik qrupla ən aşağı əmək haqqı ilə keçinən 10%-in pensiyaları arasında da anoloji fərq yaranır.

Bu fərq isə, şübhəsiz ki, orta pensiyanı yüksəldir. Xüsusilə də Azərbaycanda dövlət qulluqçularının və xidmət illərinə görə pensiya alan digər qrupların pensiya məbləği mövcud vəzifələr üzrə maaşlara bağlandığı üçün yüksək indeksasiya şərtlərində bu təbəqənin orta pensiya göstəricisi daha sürətlə yüksəlir.

Yeni məlumat tapa bilmədim, deməli ölkə üzrə orta pensiya məbləğinin 170 manat olduğu dövrdə dövlət qulluqçuları üzrə göstərici 490 manata yaxın (3 dəfəyə yaxın çox) olmuşdur.

Əgər Sosial Müdafiə Fondu şəffaf hesabatlığı olan qurum olsa, real vəziyyəti analiz etmək olar. Məsələn, son açıqlamaya görə, hazırda bütün pensiyaçıların təxminən 8%-i (100 min nəfər) minimum pensiya (280 manat) alırlar.

Bəs ölkədə ən yüksək pensiyanın məbləği nə qədərdir və bu məbləği alanların sayı neçə nəfərdir? Ən yüksək məbləğdə pensiya alan 5% (60 min nəfər) və 10% (120 min nəfər) qrup üzrə orta pensiya məbləği nə qədərdir, həmin qruplar üzrə pensiya məbləği hansı intervalda dəyişir?

280-400 manat, 400-500 manat, 500-600 manat və s. intervalları üzrə pensiya alanların sayı nə qədərdir? Ölkə üzrə median pensiya məbləği nə qədərdir?

Niyə açılanmır bu statistika? Məsələn, Ukraynanın Pensiya Fondunda bu tip məlumatlar hər kəs üçün açıqdır.

Siyasi təbliğata hesablanmış rəqəm kəndirbazlığı etməkdənsə, cəmiyyət üçünbelə faydalı hesabatlar hazırlayıb yaymaq lazımdır...

***Rövşən Ağayev***

# Sosial artımlar nəyin hesabınadır?



**İlin əvvəlində dövlət başçımız İlham Əliyevin Sərəncamı ilə minimum əməkhaqqı, pensiya və demək olar bütün növ sosial müavinətlər, təqaüdlər artırıldı. Ümumən, 1,9 milyon vətəndaşı əhatə edən bu sosial paketin icrası üçün il ərzində 750 milyon manat vəsait xərclənəcək.**

Bəs bu vəsait nəyin hesabınadır: Neftin, yoxsa dövlət büdcəsinin neftdənkənar gəlirlərinin?!

Son illər ərzində neftin dünya bazar qiymətləri bizim üçün əlverişli olub. Dövlət büdcəmizdə proqnozlaşdırılandan demək olar ikiqat artıq gəlir götürmüşük. İl ərzində büdcənin icrasının yekununda profisitin əldə olunması məhz bunun nəticəsidir.

Bundan əlavə, 2019-cu ildən etibarən dövlət büdcəmizə neftdənkənar gəlirlər - vergi və gömrük kanalları üzrə daxilolmalar da artım nümayiş etdirir. 2019-cu ildə həyata keçirilən islahatlar nəticəsində vergi və gömrük orqanlarının xəttilə dövlət büdcəsinə 1 milyard manatdan artıq vəsait daxil olmuşdu. Sonra pandemiya işləri korlasa da, 2021-ci ildə vergi daxilolmaları 15,5 % artaraq 8,5 milyard manat təşkil etməklə proqnozu 17,7% üstələdi.

2022-ci ildə Azərbaycanın dövlət büdcəsinə vergi daxilolmaları 2021-ci illə müqayisədə 82,2% artıb. Yəni, 15 milyard 541,5 milyon manata bərabər olub.

Ümumiyyətlə, ötən ilin yanvar-dekabr ayları ərzində dövlət büdcəsinə gəlirlər 30 milyard 660 milyon 600 min manat, xərclər isə 32 milyard 008 milyon 300 min manat təşkil etməklə 1 milyard 347 milyon 700 min manat (ÜDM-in 1%-i qədər) kəsir yaranıb. Bu, əvvəlki ilə nisbətən 35,6% çox olsa da, gəlir və xərclər 2021-ci illə müqayisədə müvafiq olaraq 16,2% və 16,7% yüksəkdir.

Sözüm ondadır ki, dövlət büdcəsinin profisitə yaxın icrasında bəlli səbəblər var. Birincisi, ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində budcə-vergi (fiskal) siyasəti təkmilləşib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Dövlət Gömrük Komitəsinin də iş üslublarında və yığım mexanizmlərində böyük keyfiyyət dəyişiklikləri baş verib.

İkincisi, qeyri-neft-qaz sektoru inkişaf edir. Bu, daha önəmli faktordur. İqtisadiyyatda şəffaflığın artması, "kölgə iqtisadiyyatı"na qarşı mübarizənin güclənməsi nəticəsində açıq rəqabət mühitinin yaranması dövlət büdcəsinə proqnozlaşdırılan gəlirlərin qeyri-neft-qaz sektorundan vergilərin hesabına artması üçün geniş yol açır.

Digər faktor ondan ibarətdir ki, 2014-2015-ci illərdə dünyada neftin qiymətinin kəskin şəkildə enməsi səbəbindən 2015-ci ildə manatın məzənnəsinin iki dəfə devalivasiyaya uğramasından sonra ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün bütün zəruri addımlar atılır. Məhz bu siyasətin nəticəsidir ki, son 5 ildə çox böyük irəliləyişlər əldə edilib və edilir. Bu özünü ÜDM istehsalının həcmində qeyri-neft-qaz sektorunun payının yüksəlməsində, həmin sahədən ixracın və büdcəyə gəlirlərin artmasında göstərir.

Yeri gəlmişkən, xatırladım ki, keçən ilin ortasında dövlət büdcəsinə dəyişikliklər də sırf neftin qiymətinə əsasən deyil, məhz qeyri-neft-qaz sektorundan əldə olunan gəlirlərin hesabına baş verdi. Neft Fondundan transfert məbləğinin artırılmaması, əksinə, azaldılması buna ən bariz nümunə sayıldı.

Üçüncü səbəbə gəlincə, Dövlət Vergi Xidmətinin xəttilə büdcəyə daxilolmaların artmasında inflyasiyanın da rolu oldu. Ən böyük bahalaşma ili kimi yadda qalan 2022-ci ildə qiymətlərin artması büdcəyə mədaxili genişləndirdi.

Lakin dövlət büdcəsinə gəlirlərdə qeyri-neft-qazdan daxilolmaların artmasında inflyasiya amilinin rolu və təsiri sırf keçən ilə aiddir, yuxarıda isə son 5 ilin ərzindəki tendensiyanı qeyd etdim.

Beləliklə, son 5 il ərzində dördüncü sosial paketin icrası məhz ölkə iqtisadiyyatında artımın nəticəsidir və bilavasitə təkcə neftin deyil, dövlət büdcəsinə neftdənkənar sahələrdən gəlir və vəsait daxilolmalarının hesabınadır. Dövlət başçımız İlham Əliyev isə dəfələrlə qeyd edib ki, büdcəyə nəzərdə tutulandan nə qədər çox vəsait daxil olarsa birbaşa əhalinin sosial ehtiyacları üçün xərclənəcək.

***Pərviz Heydərov***

# Ölkə mətbuatı Beyləqan rayonundan yazır

## Asif Ağayev Beyləqan şəhərinin küçələrini təmir etmək üçün dövlətin büdcədən ayırdığı pulu yeyir




RealMedia.az-ın baş redaktoru Ramin Qurbanov «Facebook» səhifəsində yazır: "Təsəvvür edin, hər il Beyləqan rayonun şəhərdaxili küçə və yollarının təmiri (asfaltlaşdırılması) üçün dövlət büdcəsindən yarım milyondan yuxarı (dəqiq rəqəmdir) maliyyə vəsaiti ayrılır.

Cənab prezident İlham Əliyevin sərəncamına əsasən, dövlət büdcəsindən təkcə Beyləqan şəhərinin daxili kücələrinin yol infrastrukturunun təmirinə ayırdığı bu qədər pulun qarşısında hələ də rayonun SMD-42 qəsəbəsində yerləşən küçələr illərdir ki, dözülməz vəziyyətdədir.

Dəfələrlə rayon icra hakimiyyətinə, Beyləqan şəhəri üzrə ərazi icra nümayəndəliyinə və şəhər bələdiyyəsinə müraciət etməyimizə baxmayaraq, gördüyünüz kücənin yolu hələ də asfaltlaşdırılmır. Niyə?"

Milli tv yazır: "Antisanitariya rayon sakinlərini üfunət qoxusundan zara gətirib" başlıqlı yazı dərc etmişdik. Dərc olunan yazıya Beyləqan Rayon İcra Hakimiyyəti rəsmi münasibət bildirib.

Rayon İcra Hakimiyyətinin göndərdiyi rəsmi mövqedə qeyd olunub: "GundemXeber", salam. Bildiririk ki, Beyləqan şəhərində sanitar-təmizlik işlərinin yerinə yetirilməsi üçün rayon kommunal müəssisələri kombinatının 39 nəfər, "DOST İş Mərkəzi" MMC-nin isə əraziyə təhkim olunmuş 96 nəfər əməkdaşı xidmət göstərir. Məişət tullantıları üçün yeni konteynerlərin qoyulması və tullantıların daşınması üçün kommunal təyinatlı texnikanın alınması məqsədilə aidiyyatı üzrə sifariş verilib. Beyləqan şəhərində olan parklara, yaşıllıq ərazilərinə qulluq göstərilməsi və şəhərin məişət tullantılarından təmizlənməsinə məsul olan qurumların fəaliyyətinə rayon İcra Hakimiyyəti tərəfindən daim nəzarət edilir."

Belə bir açıqlamadan sonra, rayon sakinləri yenidən redaksiyamıza foto və məlumat göndərərək bildiriblər ki, rayondakı saysız-hesabsız problemlər hələ də bitməyib. Rayon sakinlərinin redaksiyamızı göndərdikləri məlumatı olduğu kimi təqdim edirik: "Bizim rayonun problemləri həll olunmir! Bu barədə Prokurora, İcra Hakimiyyətinə nəzarət edən şəxslərə 1111-ə Prezident aparatına dəfələrlə zəng edib, müraciət etmişik. Amma deyirlər ki, biz heç nə edə bilmərik. Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi zənglərin heç birinə cavab vermir. Prezidentimiz ictimai nəzarəti gücləndirməyi tələb edir, amma nə qədər müraciət etsək də, heç müraciətlərə nəzarət edən yoxdur. Beyləqan rayonunun ağır vəziyyətilə heç kim maraqlanmır. Biz dəfələrlə İcra başçısına, Mədəniyyət nazirinə, şəhər ərazi nümayəndəliyi rəhbərinə, bələdiyyəyə, Prezident Administrasiyasının Beyləqan rayonu üzrə kuratoruna zəng etmişik, amma zənglərə cavab verilmir.

Mehriban Xanıma müraciət etmişik. Amma İcra Hakimiyyəti onlara yalan məlumat verib. Şikayətlərə cavab yazıb bildirirlər ki, Beyləqanda hər şey qaydasındadır. İcra Hakimiyyətinin işçiləri bizə deyirlər ki, "gedin, əliniz hara çatır şikayət edin, biz heç kimdən qorxmuruq" Sən hara şikayət edirsən et, nə rayonun işıqlarını yandıra bilərsən, nə də başqa problemlərini həll edə bilərsən". Sizdən xahiş edirik ki, bizim məlumatlarımızı ictimailəşdirəsiniz. Bu günlərdə Sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə ölkədə bir sıra tədbirlər keçirilib.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birlikdə ölkədə sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə silsilə tədbirlər keçirməsi barədə məlumat verilir.

Lakin Beyləqan şəhər sakinləri qeyd edir ki, rayon sakinləri şəhərdə yayılan üfunətdən əziyyət çəkir. Hətta Beyləqan RİH-nin binası ətrafında və rayon mərkəzində ayaqyolu belə, yoxdur. (gundemxeber.az)

PİA.az yazır: "Beyləqanda durum ağırdır. Rayonda fəaliyyət göstərən səhiyyə, təhsil, mədəniyyət və xidmət sahələrində ciddi problemlər hökm sürür. Şəhərin elektrik təminatında yaranan fasilələr xalqı narahat edir. Rayon rəhbərliyi, xüsusən icra başçısının aparatı üzərinə düşən işin öhdəsindən gələ bilmir.

Rayon əhalisi rayonda fəaliyyət göstərən xidmət təşkilatlarında, xüsusən səhiyyədə geniş yayılmış rüşvət və korrupsiyadan şikayət edir, şəkər xəstələrinin dərman təminatında, Mərkəzi Xəstəxananın doğum şöbəsində rüşvətalma adi hala çevrilib və xəstəxanada bir sıra ciddi nöqsanlar, cinayət faktları var. Bir sözlə, Dövlət Təhlükəsizlik Xidməti bir il ərzində rayonun 2 idarəsində (Əmlak şöbəsi və 8 saylı ərazi vergi idarəsində) əməliyyat keçirib, cinayət əməlinə görə, bir neçə vəzifəli şəxsləri saxlasa da, Beyləqanda vəziyyət hələ də ağırdır".

*Əlabbas*



# Rəhmətlik "Ölülər"...

Mirzə Cəlil olsaydım, cəmi-əhalimə qənim kəsilən haqsızların bir neçəsini öz personajımın diliylə məhv edərdim. Fəqət, mən o olmadım, amma yazdım. Onu kimi olmasa da yazmağa çalışdım, zatən, əlimdən gələn başqa bir iş dəxi yoxudu...

Mirzə Cəlil, rahat yat, sən bacardığından da artığını etdin, yazdıqlarının bəşəriliyi əsrlərə bərabər, hətta ondan da ötə oldu. Lakin nə yazıq bizlərə ki, sələflərin arındırmaq istədiyini xələflər qaramatdan çıxara bilmədi. Günümüz, zamanımız buna imkan versə də biz imkan yaratmadıq, sadəcə, istəmədik.

...Bu günlərdə çox insanla həmsöhbət oldum, hərçənd işimizin, peşəmizin məqsədi-məramı da elə bu. Lakin peşəmizdən kənar, insanlar ürəklərini açmağa bir qapı axtarırmış sanki. Biz elə bilirdik, peşəmizdən dolayı, müəyyən idarə-təşkilatlara olan sorğulara cavab verirlərsə (gec cavab versələr belə), demək, hamıya eyni münasibət göstərilir.

Səd heyf, insanlar idarə-müəssisələrə, adi və ali qurumlara günlərlə, aylarla, yalan olmasın, illərlə ayaq döyürlərmiş...

"Ötür-ötür" oyununun illərlə öləziməyən mahiyyətindən yorulsalar, bezsələr də, bunu onlara yaşadanlar usanmırmış, yorulmurmuş...

Mahiyyəti asan adlandırılanlardan tutmuş, ən çətin qurumlaradək uzanan yolların ağsaqqalı, ağbirçəyi də olmaq mümkünmüş...

Dünən var olan, bu gün yoxa çıxarmış. Ötənlərdə sağ olan, bu gün ölməliymiş, əlbəttə, sözün məcazi mənasında. İllərlə bu ölkənin vətəndaşı olan bir kəs anidən özünü su üstündə köpük misallı görərmiş...

Bu sözləri havadan yazmıram. Son günlər insanlardan eşitdiklərim, onların söhbətləri nəticəsində gözümün qarşısında canlanan mənzərə görmədiklərimi də reallığa çevirərmiş...

İnsanların, narahat, arxasız-dayaqsız və sadalamadığım digər qəbildən olanların ümidi sonda deyil, elə ilk başdan ölərmiş...

Məmləkətimin insanı yaşamaq üçün dünyaya gəldiyini düşünsə də, bahalaşmağı estafet götürmüş gündəmdən necə, hansı yolla çıxacağı düşüncəsi, dərdi-qəmi, fikir-xəyalı ilə gününü göyə sovurmaqdadır. "Gününü göy əsgiyə döndərənlər"in ucbatından, dünyaya gəldiyinə peşman olanların sırasındadır zəmanəmin insanı. Ən xırda məsələdən ən böyük problemin həllinədək naçar qalan insanın bu yollarda nə qədər xırdalandığının acı mənzərəsinə seyrçi olduğum üçün utanıram, Mirzə Cəlil. Axı bizlər də "Sizi deyib gəlmişik" iddiasıyla problemlərin sayını azaldacağımıza, qaramat yuxuları aydınlığa çıxaracağımıza inanırdıq... Yuxumuz yaman "çin" oldu, ustad.

Və o naçar, arxasız-dayaqsız insanların sırasında daha novruzəlilər yoxdur.

Novruzəlilərin çoxu öz səlahiyyətindən istifadə edərək həqiqi poçt qutularına ümidli olan o qəmgin, ümidsiz insanların xəyallarını tar-mar etməkdə, ömrünü-gününü "yemək-də"dir...

Nə olsun ki, bir zamanlar qəzet-jurnal az, yaxud yox dərəcəsindəydi, yazıb tirajlamağa ünvan tapılmırdı. Günümüzü o illərdən, əsrlər əvvəldən fərqləndirən mətbuat bolluğudur, vəssalam. O zaman, öz səsini eşitməyən, sözünü deyəmməyən, öz nəfəsində boğulan insan, var olduğuna əminsənmi?

Rəhmət sizə, dirilər, keçmiş olsun, ölülər!

*Nigar Orucova*

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

**XXXVI YAZI**

**(əvvəli ötən saylarımızda)**

Hz.Adəmə öyrədilən isimlərlə bağlı başqa görüşlər də var. Biz bu görüşlər sırasından birini önə çıxarırıq: hz.Adəmə əşyaya ad qoyma bacarığı verildi. Bu təsbit elmi, anlayışlarla düşünmə, ortaya elm qoyma bacarığını da əhatə edir. Hər şeyin doğrusunu bilən Allahdır.

**3) "... Onları mələklərə təqdim etdi..."**

Onları, yəni Allah nələri mələklərə təqdim etdi? Burada təqdim olunan isimlər (adlar) deyil, isimləndirilən varlıqlardır. Buradan çıxan nəticələr var:

*- mələklərin bir bilgi sahibi olmaq imkanları yoxdur;*

*- bilgini onlara Allah öyrətmişdir;*

*- mələklər onlara öyrədilən bilgini çatdıra bilirlər, onların ortaya elm qoymaq imkanları yoxdur;*

**4) "... Sözünüzün arxasında durursunuzsa (iddianızda haqlı isəniz), bunların adlarını Mənə bir-bir xəbər verin!"**

Mələklərin iddiası bu idi: yer üzündə fəsad çıxaran, qan tökən biri xəlifə olacaq. Ayənin bu hissəsində elmin fəzilətinə işarə var: yer üzünün xəlifəsi olmağın şərti elmli olmaq, elm ortaya qoymağı bacarmaqdır.

Allah hz.Adəmə əşyaların isimlərini öyrədərək ona elm, kəşf bacarığı vermişdir, insan elm ortaya qoya bilən varlıqdır, bu yönü ilə mələkdən üstündür, xəlifəliyə layiq varlıq da Odur.

**OTUZ İKİNCİ AYƏNİN ŞƏRHİ**

*"Mələklər" cavab verdilər: "Sən tək hakimiyyət sahibisən (Sübhansan), bizim Sənin bizə öyrətdiyindən başqa bir elmimiz ola bilməz. Yalnız Sənsən hər şeyi tam bilən, hər hökmü yüzdə yüz doğru olan (hər şeyi hikmətlə edən Sənsən, hökm və hikmət sahibisən)"*

**1) "... Sən Sübhansan..."**

Mələklər cavab verdilər ki, Sən tək hakimiyyət sahibisən - Sübhansan... Sübhanallah təsbihdir, yeddi göy və yerdə olan varlıqlar öz hal dilləri ilə Allahı təsbih edirlər (İsra, 17/44). *"Təsbih"* sözünün kök anlamı *"davamlı hərəkət"*dir. Qurani-Kərim buyurur ki, bütün kainat təsbih halındadır (hərəkətdədir).

Sübhanallah deyir ki, varlığın hərəkət, inkişaf, dəyişim qanununu Allah qoymuşdur. Sübhanallah deyən insan olaraq yaradıldığı üçün Allaha şükür etmiş olur. Sübhanallah təsbihi Allahı nöqsan sifətlərdən uzaq tutmaq (tənzih) anlamını daşıyır.

Mələklər *"Sübhanallah"* deyərək acizliklərini etiraf edirlər, bunu tövbə kimi də oxumaq olar. Hz.Musa Allahı görmək istəyir, sonra yanlış addım atdığını anlayır, tövbə edərkən bu sözləri söyləyir: *"... Sən Sübhansan, Sənə döndüm..."* (Əraf, 7/143). Hz.Yunus tövbə edərkən: *"Səndən başqa ilah yoxdur. Sən Sübhansan. Mən gerçəkdən zalımlardan oldum"*, - deyir (Ənbiya, 21/87).

**2) "Bizim Sənin bizə öyrətdiyindən başqa bir elmimiz ola bilməz"**

Mələklərin bu sözü dörd şeyi vurğulayır:

*a) mələklərin özlərinin bir bilgisi yoxdur;*

*b) mələklərə bilgini (elmi) Allah öyrətmişdir;*

*c) mələklərin elm ortaya qoymaq imkanı yoxdur;*

*d) mələklər onlara verilən bilgini ünvanına çatdıra bilirlər;*

**3) "Yalnız Sənsən hər şeyi tam bilən, hər hökmü yüzdə yüz doğru olan (hər şeyi hikmətlə edən Sənsən, hökm və hikmət sahibisən)"**

Mələklər deyirlər ki, əl-Alim olan bir varlıq var, O da Allahdır. O, əl-Alimdir, hər şeyi mükəmməl bilir. Onun əl-Alim olduğuna iman bu anlamları daşıyır:

*- O, hər şeyi bilir, hər şeyi bilən başqa bir varlıq yoxdur;*

*- əl-Alim isminə iman qeybə imandır, qeyb insan üçündür, əl-Alim olan Allah üçün qeyb yoxdur;*

*- əl-Alim isminə iman Allahdan heç bir şeyin gizli qalmayacağına imandır, kimsə Ondan qaça bilməz, hər şeyin hesabı var;*

*- O, elə bir Alimdir ki, düşən hər yarpağı, əkilən hər toxumu da bilir (Ənam, 6/59);*

*- əl-Alim olan Allah iç dünyamızı da bilir (Mustafa İslamoğlu, Kurana göre esma-i hüsna, C.I, s. 784-785);*

Allahın bilgisi ilə insanın bilgisi arasında bu fərqlər var:

*1) Allahın bilgisi bilinənin varlığına bağlı deyil, insanın bilgisi bilinənin varlığına bağlıdır;*

*2) Allahın bilgisi birbaşa (Özündən olan) bilgidir, insanın bilgisi qazanılmış bilgidir;*

*3) Allahın bilgisi zamana bağlı deyildir, insanın bilgisi zamana bağlıdır;*

*4) Allah bilmək üçün duyğulara, fikrə ehtiyac duymaz, insanların bunlara ehtiyacı var;*

*5) Allahın bilgisi qalıcıdır, insanın bilgisi keçicidir;*

*6) Allahın bir şeyi bilməsi bir başqa şeyi bilməsinə mane olmaz, insanda bunun əksinədir;*

*7) Allahın bilgisi sonsuzdur, insanın bilgisi sonludur (Mustafa İslamoğlu, Kurana göre esma-i hüsna, C.I, s. 768);*

Mələklər deyir ki, Sən əl-Hakim olan Allahsan (hökm və hikmət sahibisən), hər zaman hikmətlə hökm edirsən, hər hökmün yüzdə yüz doğrudur, hər şeyi yerli yerində yaradırsan, işini qüsursuz yerinə yetirirsən.

Hikmət Allaha aid olanda Onun hər şeyi yerli-yerində yaratmasını, insana aid olanda hər şeyi yerli-yerində tutmasını nəzərdə tutur. Var olan hər şeyin bir hikməti var.

Allahın əl-Hakim olması bu anlamları daşıyır:

*- bir şeyi bir məqsədlə yaradır;*

*- yaratdığı şeyə məqsədinə uyğun yer təyin edir;*

*- o şeyi təyin olunmuş yerində yaradır;*

*- o şeyə yerini tanıyıb onu qəbul edəcək bir istedad verir;*

*- o şeyə təyin olunmuş yeri ilə uyum içində inkişaf edəcəyi bir fitrət bəxş edir;*

*- iradəli varlığa istifadə edəcəyi o şeyi yerli yerində tutacaq bir şüur verir;*

*- o şeyi yerindən edəni cəzalandıracaq, yerində tutanı mükafatlandıracaq bir gücə sahibdir (Mustafa İslamoğlu, Kurana göre esma-i hüsna, C.I, s. 798);*

Mələklərin cavabı bu anlamlara gəlir: biz aciz varlığıq, Sənin bizə öyrətdiklərindən başqa bir şey bilmək imkanımız yoxdur, fəsad çıxaran, qan tökən bir varlığı yer üzünün xəlifəsi təyin etməyin hikmətini də Sən bilirsən, Sən Sübhansan, hər cür nöqsan sifətlərdən uzaqsan, bütün mükəmməlliklər Sənə aiddir, Sən hökm və hikmət sahibisən.

**OTUZ ÜÇÜNCÜ AYƏNİN ŞƏRHİ**

*"(Allah) buyurdu: "Ey Adəm! Bunların isimlərini (adlarını) onlara bildir". Onların adlarını mələklərə bildirəndə də: "Sizə deməmişdimmi ki, göylərin və yerin sirrini Mən bilirəm, gizlədiklərinizin və açıqladıqlarınızın hamısını Mən bilirəm", - deyə buyurdu"*

**1) "(Allah) buyurdu: "Ey Adəm! Bunların isimlərini (adlarını) onlara bildir". Onların adlarını mələklərə bildirəndə də: "Sizə deməmişdimmi ki, göylərin və yerin sirrini Mən bilirəm...", - buyurdu"**

Hz.Adəmə bilgini (isimləri) öyrədən (təlim edən) Allahdır. Öyrədilmiş bilgini mələklərə çatdıran isə hz.Adəmdir, yəni düşüncənin ilk məyasını insana verən Allahdır. Hz.Adəm insanlığın simvoludur.

Ayədəki *"bunların isimlərini"* ifadəsi əşyaların adlarını nəzərdə tutur. Dialoqda hz.Adəmin mələklərdən üstünlüyü ortaya çıxır. Onun üstünlüyünü təmin edən nemət elmdir. Bu yolla da yer üzünün xəlifəliyinin ilk şərtinin elm olduğu həqiqəti təsdiq olunur.



Bu ayə insanın şərəfli varlıq olduğuna, elmin dəyərinə, üstünlüyünə, insanın yer üzünün xəlifəliyinin elmə bağlı olduğuna işarə edir.

Ayə bir daha vurğulayır ki, mələklər qeybi bilməz, mələklərin bilgisi Allahın onlara verdiyi qədərdir. Göylərin və yerin sirrini bilən bir varlıq var, O da Allahdır.

**2) "... Gizlədiklərinizin və açıqladıqlarınızın hamısını Mən bilirəm..."**

Mələklərin gizlədikləri və açıqladıqları ilə bağlı bu görüşlər var:

*- Abdulla bin Abbas, Abdulla bin Məsud, Səid bin Cübeyrə görə, onların açıqladığı bu sözlər idi: yer üzündə fəsad çıxaracaq qan tökəcək birinimi yaradacaqsan? Gizlədikləri isə İblisin içində gizlədiyi təkəbbür və Allahın əmrlərinə boyun əyməmə duyğusu idi;*

*- Katadə və Həsən Bəsriyə görə, onların gizlədikləri şey Rəbbimiz bizdən daha üstün bir varlıq qətiyyən yaratmaz düşüncəsi idi;*

*- Rəbi bin Enesə görə, onların gizlədikləri şey Rəbbimiz bizdən daha elmli, daha üstün bir varlıq qətiyyən yaratmaz düşüncəsidir;*

*- Bizə görə, doğru görüş budur: mələklərin açıqladığı bəllidir: yer üzündə fəsad çıxaran, qan tökən birinimi xəlifə təyin edəcəksən? Mələklərin gizlədiyi isə yer üzünün xəlifəliyinə daha layiq olduqları düşüncəsidir.*

Hər şeyin doğrusunu bilən Allahdır.

**OTUZ DÖRDÜNCÜ AYƏNİN ŞƏRHİ**

*"Bax o zaman mələklərə demişdik: "Adəm oğlu üçün əmrə hazır olun (səcdə edin)". İblis xaric hamısı əmrə hazır olmuşdular. O (isə) əmrə qarşı gəldi, təkəbbürləndi və nankorlardan oldu".*

**1) "Adəm oğlu üçün səcdə edin - əmrə hazır olun..."**

Uca Allah hz.Adəmə əşyaların isimlərini (adlarını) öyrətdi, elm verdi, mələklərdən üstün qıldı, onu yer üzünün xəlifəsi təyin etdi, indi də mələklərə əmr edir ki, Onun üçün səcdə edin.

Bir sıra məallarda (tərcümələrdə) ayə *"Adəmə səcdə edin"* kimi tərcümə olunur. Bu doğru tərcümə deyil. Doğru tərcümə budur: *"Adəm üçün səcdə edin"*. Ayədə *"li" ("üçün")* ədatı var *("li Adəmə" - "Adəm üçün")*. Ayə Adəm üçün səcdə edin kimi oxunanda məqsəd dəyişir, mesaj aydın olur, yəni səcdənin ünvanı hz.Adəm deyil, Allahdır (Ondan başqasına səcdə haramdır).

*"Səcdə"* sözü ərəbcədir, *"s-c-d"* kökündəndir, Qurani-Kərimdə eyni kökdən olan sözlərin sayı doxsan ikidir, bu mənaları var: *"səcdə etmək"*, *"səcdə"*, *"səcdə edən"*, *"səcdə edənlər"*, *"səcdə yeri"*, *"məscid"*, *"məscidlər"*, *"əyilmək"*.

Dini termin kimi səcdə iki ayağın, iki dizin, iki əlin, alınla burunun yerə qoyulmasıdır.

Səcdə iki yerə ayrılır: ixtiyari (seçimə bağlı), məcburi. Seçimə bağlı səcdə sadəcə insana aiddir, bu səcdənin sonunda savab var. Məcburi səcdə isə insandan başqa varlıqlara aiddir.

Səcdə Allaha təslimiyyətin göstəricisidir. Allah buyurur ki, kainat Allaha səcdəyə köklənmişdir:

*"Göylərdə və yerdə olanların hamısı istər-istəməz Allaha səcdə edərlər"* (Rəd, 13/15).

*"(Ey insan!) Göylərdə və yerdə olan hər kəsin, Günəşin, Ayın, ulduzların, dağların, ağacların və heyvanların (istər-istəməz) Allaha səcdə etdiyini (Onun əmrinə hazır olduğunu) görmürsənmi?"* (Rəd, 13/15; Nəhl, 16/49; Həcc, 22/18).

*"Gövdəsiz və gövdəli bitkilər Ona səcdə edərlər (əmrinə boyun əyərlər)"* (Rəhman, 55/6).

*"... Onların kölgələri sağ və sollarından süzülüb dönərkən Allaha təslim olub (qoyduğu yasaya) dərin bir təvazö ilə boyun əyirlər (səcdə edirlər)"* (Nəhl, 16/48).

Hər varlıq Allahın onun üçün müəyyən etdiyi yasaya (qanuna) uyğun hərəkət edir, onun üçün seçdiyi məqsədi gerçəkləşdirir. Səcdə budur.

Səcdə namazın bir parçasıdır. Qurani-Kərimdə səcdə:

*- namazdır; (Ələq, 96/19)*

*- rukudur; (Bəqərə, 2/58)*

*- boyun əymə, təslimiyyətdir; (Rəhman, 55/6)*

Qurani-Kərimə görə səcdə insanı Allaha yaxınlaşdırır (Ələq, 96/19), deməli, namaz insanı uca Allaha yaxınlaşdıran bir əməldir.

Səcdə namazın bir parçası olsa da, namazdan ayrı olaraq da səcdənin əmr edildiyi ayələr var (Ali-İmran, 3/43, 113; Tövbə, 9/112; Həcc, 22/77; Furkan, 25/64; Zumər, 39/9; İnsan, 76/26; Ələq, 96/19), yəni səcdə müstəqil bir ibadət biçimidir, müsəlmanlar Allaha çox səcdə etməlidirlər.

Qurani-Kərimdə tilavət səcdələri var. Bu tilavət səcdələri uyğun ayənin kənarında işarə edilir. Qurani-Kərimdə on dörd tilavət səcdəsi ayəsi var (Tilavət səcdəsi ilə bağlı ayələr: Əraf, 7/206; Nəhl, 16/50; İsra, 17/109; Rəd, 13/15; Məryəm, 19/58; Həcc, 22/18; Sad, 38/24; Furkan, 25/60; Səcdə, 32/15; Fussilət, 41/37; Nəml, 27/25; Ələq, 96/19; Nəcm, 53/62; İnşiqaq, 84/21).

Səcdənin Allahın ucalığı qarşısında boyun bükmək anlamı da var (Araf, 7/125; Yusuf, 12/4, 100; Hicr, 15/98; İsra, 17/107; Məryəm, 19/58...).

*"Adəm üçün səcdə edin"* ayəsinin mesajı budur: Adəmi fərqli fitrətlə yaradan, onu elm verərək üstün qılan, yer üzünün xəlifəsi seçən Allaha səcdə edin, Adəmin üstünlük səbəbi elmdir, elmin gerçək sahibi də Allahdır. Təfsir alimi Bayraqdar Bayraqlının dediyi kimi bilməyənlər bilənlərə boyun əyərlər.

Adəm üçün səcdə etmək Onun üstünlüyünü qəbul etmək, saygı göstərməkdir. Biz Günəşin, Ayın, on bir ulduzun, ailəsinin hz.Yusifə, sehrbazların hz.Musaya səcdə etməsini də üstünlüyün qəbulu kimi oxumalıyıq. Səcdə təkəbbürün ziddidir, təkəbbür Allaha üsyan, səcdə Ona təslimiyyətdir: *"Göylərdə olanlar, yerdəki canlılar və bütün mələklər təkəbbür göstərmədən Allaha səcdə edərlər"* (Nəhl, 16/49). *"Adəm üçün səcdə edin"* ayəsi namazdakı səcdəni nəzərdə tutmur, elmi olan insana (Adəmə) saygını ifadə edir. Mələklər Adəm üçün səcdə etməklə uca Allaha ibadət etmiş, Onun əmrinə təslim olmuş, hz.Adəmin yer üzünün xəlifəliyinə layiq olduğunu bildirmişlər. Bu çərçivədə səcdə qəbul və etirafdır, sən yer üzünün xəlifəliyinə layiqsən, ey Adəm, deməkdir. Bu həm də insanın çox dəyərli bir varlıq olduğunun ifadə edir.

*Ardı var...*

***Sıracəddin Hacı***

# Laçın qaçqını Şəki Məşğulluq Mərkəzinin direktorundan Prezidentə şikayət etdi

*Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə.*

*Surəti: Azərbaycan Respublikası Baş Prokuror Cənab Kamran Əliyevə;*

*Surəti: Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Naziri Cənab Sahil Babayevə;*

*Surəti: Azərbaycan Respublikası Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Cənab Mustafa Abbasbəyliyə;*

*Surəti: "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbasa*

Şəki rayonu, Yeni Çələbixan Köçkünlər qəsəbəsində məskunlaşan, Laçın rayonundan məcburi köçkün Abdullayev Əbdül Nurqələm oğlu tərəfindən

ŞİKAYƏT

**Hörmətli cənab Prezident!**

Sizə etdiyim bu şikayətin motivi Şəki rayon Məşğulluq Mərkəzində baş verən xoşagəlməz hallarla və direktor Abdulla Kərimovun rüşvətxorluğu və vətəndaşların hüquqlarının tapdalanması ilə bağlıdır. Bildirirəm ki, Şəki Məşğulluq Mərkəzini direktor Abdulla Kərimov özünün korrupsiya cinayətlərinə xidmət mərkəzinə çevirib. Dövlət idarəsi yalnız direktorun yaxın çevrəsinə və imkanlı şəxslərə xidmət göstərir.

Direktoru işçilərə qanunsuz tapşırıqlar verməsi vətəndaşlar arasında çaşqınlıq yaradır və ciddi narazılığa səbəb olub. Mənfi əməllərinin miqyasını hər gün genişləndirən direktor Abdulla Kərimovun tabeliyində olan işçilərə qanunsuz tapşırıqlar icra etdirməsilə hər an qarşılaşırıq.

Hörmətli cənab Prezident!

Mərkəzin direktoru dövlətin özünəməşğulluq proqramı çərçivəsində qəbul etdiyi qərarları cinayətkarcasına pozur və qanun üzərinə kölgə salır, Şəki rayon Məşğulluq Mərkəzini çirkli şəxsi gəlir mənbəyinə çevrib. Şəki rayon Məşğulluq Mərkəzinin direktoru Abdulla Kərimov mərkəzin bütün fəaliyyətini şəxsi qazanc əldə etməyə yönəldib. Məşğulluq Mərkəzinin direktoru dövlət müəssisəsini dədəsindən miras qalmış mülk kimi işlədir. Sanki dövlət idarəsi direktorun şəxsi kontorudur.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin diqqətindən yayınan Şəki rayon Mərkəzdə əhaliyə yuxarıdan aşağı baxılır, insanlar əsassız incidilir və aşağılanır. Burada yalnız o adamların işi düzəlir ki, rəhbər şəxslərin təklif etdiyi çirkin, dolayı yollarla razılaşır. Onların rüşvət marağını təmin etməyən digər vətəndaşlar isə, müxtəlif bəhanələrlə, yalançı vədlərlə aldadılıb yola salınır.

Hörmətli cənab Prezident!

Sizdən xahiş edirik ki, Şəki Məşğulluq Mərkəzinin direktoru Abdulla Kərimovun fəaliyyəti xüsusi təşkil edilmiş komissiya tərəfindən ciddi araşdırılsın. Abdulla Kərimov həddini o qədər aşıb ki, heç nədən çəkinmədən məşğulluğa müraciət edən vətəndaşlara "əlin cibində olsun" - deyir və açıq rüşvət tələb edir. Özünün çirkin ənənəsinə sadiq qalan və yuxarı orqanlardan Məşğulluq Mərkəzinə şikayətləri yoxlamaya gələnləri ələ almaq məharətinə malik olan Abdulla Kərimov peşəkar rəşvətxor məmur obrazını çox yüksək səviyyədə qoruyur. Güman edirəm ki, dövlət orqanları korrupsiya çirkabına bulaşmış mərkəzin fəaliyyətindən xəbərsizdilər.

Hörmətli cənab Prezident!

Direktor dövlət özünəməşğulluq proqramı çərçivəsində ayırılan pul vəsaitini mənimsəyərək, proqrama cəlb olunan əhaliyə sağlam heyvanlar əvəzinə, xəstə mal-qara verir və vətəndaşlarda dövlətə qarşı inamsızlıq yaradır. Bir sözlə, Şəki rayon Məşğulluq Mərkəzinin tam çirkab içində olması barədə dövlət orqanlarına xəbər verməyi vətəndaşlıq borcu hesab edim.

Hörmətli cənab Prezident!

Bu şikayəti bir neçə dəfə məktub vasitəsilə Sizə və digər dövlət orqanlarına göndərmişəm, lakin heç bir cavab almamışam. Ona görə də Şəki rayon Məşğulluq Mərkəzinin direktoru Abdulla Kərimovun rüşvətxorluq fəaliyyəti haqqında şikayəti Sizə mətbuat vasitəsilə göndərməyi vacib hesab etdim.

Sizə əvvəlcədən təşəkkürümü bildirirəm.

*Hörmətlə: Abdul Abdullayev*
*Mobil: 0514345982*

P. S. Vətəndaşın şikayətilə əlaqədar materialı vatsapla Şəki rayon Məşğulluq Mərkəzinin şöbə müdiri cənab Məmmədyar Şükürova göndərdik. O isə şikayətlə bağlı bunları dedi: "Vətəndaş özünüməşğulluğa təzə yazılıb . Özünüməşğulluq isə növbəlilik əsasında aparılır, vətəndaş növbəsini gozləməlidir. Qaldı ki, vətındaşın sikayəti tamamilə həqiqəti əks etdirmir. Məşğulluq agentliyində rüşvətin olmadığını hər kes bilir bunu həmin vətəndaş da bilməlidir. Hədə-qorxu ilə, şikayətlə fikirləsmesin ki, onu tezliklə özünüməşğulluga cəlb edəcəklər.

Başqa sualınız varsa buyurun.

Fikirləşirəm ki, artıq suala ehtiyac yoxdu yetərincə cavablandirdim.

Siz mənə niyə yazmisiz ki?

Vətəndaşin şikayət etmək hüququ var, edə bilər. Araşdırılıb cavab veriləcək özünə"

Məmmədyar Şükürova izah etdik: Cənab şöbə müdiri, aldığımız məlumata görə, siz uzun müddətdir həmin idarədə məsul vəzifə daşıyırsınız. Bilməlisiniz ki, mətbuata yazılan ərizə, şikayət haqqında idarənin, orqanın məsul şəxslərinin münasibət öyrənilməlidir. Ona görə vətəndaşın şikayətini sizə göndərmişik. Yəqin fikrimizi anladınız, sağ olun, cənab Məmmədyar müəllim...



# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

*Surəti: Birinci vitse-prezident xanım Mehriban Əliyevaya*

MÜRACİƏT

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Ölkəmizdə biz gənclərlə bağlı Sizin bütün sahələr üzrə apardığınız uğurlu islahatlar nəticəsində ölkəmizin iqtisadi inkişafı sürətlənir. Bu istiqamətdə istər siyasi, istərsə də kadr sahəsində aparılan islahatlar nəticəsində nəzərəçarpacaq dəyişikliklər baş verməkdədir. Biz gənclər də gördüyünüz işləri nəzərə alaraq, gələcək karyeramızda uğurlara imza atmaq istəyirik.

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Çox təəssüflər olsun ki, böyük arzularla yaşadığımız indiki dövürdə cəmiyyətimizdə gənc və peşəkar dələduzlar dəstəsinin toruna düşmüşük. Kifayət qədər təcrübəmizin olmaması, sadə və inanclı adamlar olduğumuza görə, səhvlər etmişik. Belə ki, Gəncə şəhəri, Kəpəz rayonu, 3-cü mik\n, ev 7 , mən. 68-də qeydiyyatda olmuş, Sumqayıt şəhərində ailəsilə birlikdə kirayədə yaşayan, 1993-cü ildə anadan olmuş Rzayev Vahid Mahir oğlu özünü "Supermen biznesmen" kimi qələmə verərək, "Whatsapp" mesajlaşma proqramında "Yatırım" adlı qrup yaradıb. Həmin şəxs sosial şəbəkələrdə qrupun reklamını təşkil edərək, müxtəlif yalan, şirnikləndirici vədlərlə biz sadə gənc insanların etibarını qazana bilmişdir. Vahid ona müraciət edən bizi kimi vətəndaşlara yatırım etmək adı ilə qoyduqları sərmayənin ən azı 2 qat mislini 1 həftə ərzində ödəyəcəyi barədə həqiqətə uyğun olmayan vədlər verərək, qrupun admini kimi qurduğu dələduzluq piramidası əsasında hazırda istintaqa məlum olan 100-dən artıq vətəndaşı aldadıb.

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Bu adam birdən yoxa çıxdı. Rəsmi məlumatlardan öyrəndik ki, DİN-nin Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməliyyatçıları tərəfindən Vahid saxlanılıb. Hazırda onun istintaqı DİN-nin Bakı Baş Polis İdarəsində Ceyhun adlı müstəntiq tərəfindən aparılır. Ona görə də biz də iş üzrə zərərçəkən şəxslər kimi müraciət etmək istəyirik ki, Vahid və ailə üzvləri olan atası Mahir, anası Ramiyyədən ibarət dələduz dəstə tərəfindən törədilmiş cinayət araşdırılsın və bizə dəymiş madi ziyanlar ödənilsin:

1. Mən Elnur Həmidzadə 2022-ci ilin ortalarında Vahidlə tez-tez görüşdüm. Əvvəl verdiyim kiçik məbləğləri 2 qat olmaqla 1 həftədən sonra geri qaytarırdı. Beləliklə, o mənim etimadımdan süi-istifadə edərək, inandırdı və məni daha çox pul qazanmağa şirnikləndirdi. Və növbəti həftələr üçün ona 2000, 3000, 5000 , 7000, və sonda 10000 manat nağd pul verdim. Yəni mənə qaytardığını nəzərə almasaq, Vahid məni sonda 21000 manat ziyana saldı və bu pulu qaytarmadı;

2. Məmmədli Ülvi - Mən də tələbə kimi evdən mənə verilmiş 1765 manat təhsil haqqı olan pulu bu adamın bank kartına köçürdüm. Get-gələ saldı.Və min bir bəhanə ilə pulu verəcəyini vəd etdi.

3. Salamov Yusif - Mən də Vahidlə vatsap qrupunda tanış oldum. Ona iki dəfə ABB-dən olan 4098094421077650 nömrəli kartına iki dəfə olmaqla 1850 manat və 2780 manat, cəmi 4630 manat pul köçürdüm. Amma hələ də kartıma vəd verdiyi "qazancı" qaytarmır.

4. Mən, İranə Novruzova da Vahid Rzayev adlı şəxsin vatsap üzərindən verdiyi yalançı vədlərin "qurbanı" oldum. Onun Beynəlxalq Banka aid kartına 600 manat pul yüklədim.

Bir sözlə, biz bu nəticəyə gəlirik ki, Vahid Rzayev Gəncədən ailəsilə birlikdə Sumqayıt şəhərinə köçüb burada kirayə evdə yaşamışdır. Və yaşamaqda davam edir. bu adam dələduz şəbəkənin təsiri altında belə bir işə girişmişdir ki, kirayə pulunu və ərzaqla ailəsini təmin etsin. Bizdə olan məlumata görə, Vahid Rzayeb dələduzluğu ailə üzvlərinin köməkliyilə çox ustalıqla həyata keçirmişdir. Ona görə də hesab edirik ki, bu dələduzun arxasında duran şəxsləri müəyyən edərək onları təcili ifşa etmək lazımdır. Yəni açıq-aşkar belə bir yükün altına girmək və ən pis variantda belə, ona əvvəlcədən kimlərsə tərəfindən narahat olmamaq üçün zəmanət verilmişdir.

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Vahid sadəcə olaraq Bakı və Sumqayıtda fəaliyyət göstərən internet üzərindən dələduzluq piramidası quran dəstənin bir həlqəsidir. Cinayətkar şəbəkənin ifşa edilməsi üçün əsas fiqurları üzə çıxarmaq peşəkar istintaqın işidir. Çünki,Vahid Rzayevin şəxsi bank kartına köçürülən 200000 manatdan çox nağd pul qəbul etsə də, o bu pullara özü sərəncam verməmişdir. Həbs olunacağını bildiyinə baxmayaraq ki, bu dələduzluğa qoşulmuşdur. Nə də özünə hər hansı əmlak- avtomobil və ya evə almamışdır. O zaman sual yaranır ki, ələ keçirdiyi pulları kimə vermişdir? Bu sualın cavabı tapılan kimi 100-dən çox bizi kimi aldadılmış şəxslərin də pullarının geri qaytarılması mümkün olacaqdır.

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Sizə böyük ümidlə müraciət edirik ki, bu dələduzluq cinayətini törədən şəbəkənin cinayətkar fəaliyyətini cənab nazir Vilayət Eyvazova həvalə etməklə, şəxsi nəzarətinizə götürəsiniz, hazırda kənardan istintaqa təsir edən əsl dələduz rəhbərin kim olduğu ortalığa çıxarılsın, biz zavallı insanların da pulları geri qaytarılsın.

Çox hörmətli cənab Prezident İlham Əliyev və xanım Mehriban Əliyeva!

Göstərdiyiniz köməyə görə, Sizə əvvəlcədən minnətdarlığımızı bildiririk.

Hörmət və ehtiramla,
İmzalar:

*1. Ülvi Məmmədli*
*050- 5944494*
*2. Elnur Həmidzadə*
*055- 877 0770*
*3. Yusif Valeh oğlu Salamov*
*050- 738 92 42*
*4. İranə Novruzova*
*077- 715 03 22*

# Problem yaradanlar...

## Qurban gedənlər...

**Gündəm müxtəlif xəbərlərlə doludur. Bu, hər zaman belə olub. Həftəbəcər gündəmimizə aid xəbərin hər biri isə böyük bir problem deməkdir. Çünki onun ibtidaisini həll etməyəndə, təbii inkişafa uyğun olaraq daha "ali"si baş qaldırıb və o da get-gedə artıb, çoxalıb...**

"Problem zənginliyi" mərəzindən qurtula bilmədiyimizdəndir ki, günümüz-saatımız problem içində keçir. Bu ölkədə köklü deyil, ən adi problemin həlli də müşgülə dönüb. Nəticə də odur ki, məsuliyyətsizlik davranışları az qala həyati məsələyə dönüb, ölüm-qalım dilemmasına rəvac verib.

Yerində sayan problemlərin sırasına bugünlərdə daha biri də əlavə olunub. Əslində, bu problem heç də yeni deyil, çoxdanın məsələsidir. Lakin son dönəmin məlum hadisələrindən dolayı, diqqəti cəlb edib. Çünki yeni olsaydı, qeyd edilən problem illərdir hamının gözünün qabağında, yetkililərin də "diqqət"indən kənarda qalmazdı.

Əlqərəz, məşum zəlzələ hadisəsi Bakıdakı bəzi yaşayış binalarının üzərində aparılan əlavələri, mərtəbələri və daha nələri *"üzə çıxarıb"*. Məlum olub ki, heç demə, neçə illərdir istifadəyə verilən



yaşayış binalarının görünüşü, forması dəyişdirilibmiş. Hətta, imkan olsaydı, təyinatını da dəyişdirə bilərmişlər. Ki, buna ya imkan olmayıb, ya da imkan yaradılmayıb...

Görəsən, hadisələrin hazırkı qaynarlığı fonunda, bu məsələ gündəmə gəlməsəydi, nə baş verərdi, hansı hallar, hadisələr, faciələr yaşanardı?

Deyəsən, əlaqədar qurumları bu, elə də narahat eləmir. Çünki onların işi elə əvvəldən belə qanunsuz məsələlərə müdaxilə etmək, ya da qarşısını almaq idisə, o zaman onlar harda yatmışdılar, nədən mürgüləyirdilər? Axı binalarda aparılan əlavə tikinti işlərini, konstruksiya dəyişikliklərini kimsə özbaşına həyata keçirə bilməzdi. Bunun üçün cürbəcür adda olan idarə-təşkilatlarının aidiyyatı üzrə olanını *"görmək"* lazım idi mütləqa... Qanunsuzluqlara qanun "donu" geyindirənlərin zövqündəndir ki, bu gün həmin binalar potensial təhlükə mənbəyi, faciə, ölüm məskənidir.

Nədənsə, bu məsələ gündəmə gəlsə də, hələ də geniş əks-səda doğurmayıb. Problemin qədimliyi həmin istiqamətdəki qurumların "məsuliyyəti"ni ortaya qoysa da, hələlik onlarla haqq-hesab çəkilməyə başlanmayıb. Yəni kütləvi şəkildə, ciddi müstəvidə. Bu, bəlkə də elə əlaqədar qurumlara nəzarət etməli olanların hansı formada fəaliyyət göstərdiyinin göstəricisidir.

Belə olmasaydı, yuxarıdan-aşağıya, sadədən-mürəkkəbə, göz qarşısında olan problem də yaranmazdı.

Belə olmasaydı, kimsə cəsarət edib binanın damında fərdi ev tikdirməzdi. Necə deyərlər, *"kəndxudanı gör, kəndi çap"...*

Məsələnin ən maraqlı tərəfi isə çoxmərtəbəli binalarla bağlı olan məsələyə Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilən münasibətdir. Belə ki, Komitəyə görə, çoxmərtəbəli binalarda belə hallar müşahidə edilərsə, aidiyyəti qurumlara məlumat verilir. Guya şəhər icra hakimiyyəti də məlumatlar əsasında yoxlama apararaq, qanunsuzluq aşkar ediləcəyi təqdirdə, həmin tikililəri sökür. *"İnanan daşa dönsün"*mü?

Fəqət bizlərdə daşa dönənləri görmədik, daşa hörgü hörənləri gördük...

Bəli, *"ya zəlzələdən, ya da vəlvələdən"*, problem gündəmə gəlib. Əslində, qanunsuzluqdan dolayı, o, çoxdan gündəmə gəlməliydi. Lakin nə faydası?! Problemlilərin öz səlahiyyətindən sui-istifadə etdiyi, bundan istifadə edənlərin isə var olduğu məmləkətdə kitabxananı kababxana, çoxmərtəbəlini də fərdi yaşayış binası edə bilirlər...

*"Bacarana can qurban"* kimi hər situasiyaya *"haqq qazandıra"* bilənlər də tapılar bu məqamda. Yalan deməyək, həqiqət də odur ki, belə problemlər sayəsində, elə qurban da can olur...



Nigar Orucova

# "BU BİNALAR BAKINI BATIRACAQ..."

## "2 mərtəbəyə icazə alır, 5 mərtəbə tikir, 5 mərtəbəyə icazə alır, 7 mərtəbə tikir"



## "Bütün Abşeronu birdən-birə su basa bilər"

### "Abşeron Nuhun gəmisinə bənzəyir, günün birində batacaq"

Xalq şairi, VHP sədri Sabir Rüstəmxanlı Türkiyədə baş verən dəhşətli zəlzələnin dərslərindən danışıb. Zəlzələ bölgəsində yaşayış binalarının tikintisinə ciddi nəzarət edilmədiyinə diqqət çəkən millət vəkilinin fikrincə, geniş miqyaslı insan tələfatının səbəblərindən biri də budur: *"Kimlərinsə pul qazanmaq ehtirası insanların həyatını riskə atır. Türkiyədə həmin binaları inşa edənlərin bəziləri xaricə qaçmaq istəyirdilər. Sən hansı vicdanla yaşaya bilərsən xaricdə? Hələ çoxlarının cəsədi uçqunun altından çıxarılmayıb!*

*Təəssüf ki, Azərbaycanda da məsələlərə münasibət fərqli deyil. Cibimizi doldurmaq xətrinə insanların həyatını riskə atırıq. Bakıda, Yeni Yasamalda binaları bir-birinə o qədər yaxın tikiblər, heç arada yol da qoymayıblar. Buna necə icazə verilib, necə tikilib? Bu tikənlərin gözü ayaqlarının altını görmür?"*

Millət vəkilinin sözlərinə görə, yalnız paytaxtda deyil, ətraf qəsəbələrdə də oxşar vəziyyət hökm sürür: *"Xırdalanda səki belə qoymayıblar. O cür gözəl yerdə yaxşı planlaşdırma ilə evlər tikilə bilərdi. Amma insanların hərəkəti üçün səkini belə düşünməyiblər. Üstəlik 15 mərtəbəli binanın 1-ci mərtəbəsi tikilib, ikinci mərtəbədən onu sağdan və soldan 1-2 metrə qədər genişləndiriblər. Bunu özlərinə qazanc bilirlər. Bəs, başa düşmürlər ki, bu ayaqlar o yükü daşıya bilməz? Yaxud, zirzəmilər məsələsi olsun. Türkiyədə də göstərdilər bunu. Zirzəmilərdə alış-veriş yerini genişləndirmək üçün dirəkləri kəsir, sütunları doğrayırlar. Sən dirəyi kəsməklə orda yaşayanların ömrünü kəsirsən axı. Ona görə də Türkiyə zəlzələsi acı bir dərsdir. Hər kəs bunu görüb düşünməlidir. Şəxsi evlər tikənlər də buna diqqət etməlidir".*

1902-ci i Şamaxı zəlzələsini xatırladan Sabir Rüstəmxanlı o zaman şəhərdə daş evlərin dağıldığını, molokanların evlərinin isə salamat qaldığını bildirib: *"Bəyənmədiyimiz sovet dövründə hündürmərtəbəli, məsələn, 9 mərtəbəli ev tikiləndə onun təməli atılırdı və yarım il gözləyirdilər ki, möhkəmlənsin. Sonra baxırdılar ki, orda neçə mərtəbəli ev tikmək olar. İndi 2 mərtəbəyə icazə alır, 5 mərtəbə tikir, 5 mərtəbəyə icazə alır, 7 mərtəbə tikir. Bunun məsuliyyətini kim daşıyır? Kim buna icazə verir? Ən keyfiyyətsiz armaturlar, aşağı səviyyəli betondan istifadə olunur. İçəridə istifadə olunan avadanlıqlar, çilçıraqlar, divar kağızından başlamış bütün santexnika sisteminə qədər hər yerdə keyfiyyətsiz mallardan istifadə olunur ki, ucuz başa gəlsin".*

Millət vəkili hesab edir ki, Azərbaycanda tikinti sektorunda ciddi araşdırma aparılmalıdır: *"Nəyə görə şəhərdə tikinti işləri ancaq müəyyən qrupların əlində olmalıdır? Burda korrupsiya, rüşvətxorluq, oğurluqla məşğul olan bir çevrə yaranıb. Müəyyən idarələrin çevrəsi var ki, oraya hər adam girə bilmir. Hər şeyi onlar həll edirlər. Mən vaxtilə Milli Məclisdə demişdim ki, Bakı, ümumiyyətlə, Abşeron Nuhun gəmisinə bənzəyir. Günün birində batacaq. Yeraltı suların üzə çıxmasına 1-2 metr qalır. Bütün Abşeronu birdən-birə su basa bilər. Belə bir şəraitdə bütün tikililər - zavodlar, fabriklər, digər müəssisələr buradadır. Üstəlik bu qədər sıx şəkildə. Yeni Yasamaldan o tərəfə Şubanı dağları var. Bir yol çəkin, tikintilərin bir hissəsini Şubanı dağlarına keçirin. Bir hissəsini Bakı-Şamaxı yoluna, digər hissəsini Ələt istiqamətində gedən yola. Verin iş adamlarına, orda yeni infrastruktur qursunlar, abadlaşdırıb bir sıra tikinti və binaları ora köçürsünlər. Niyə hamısını şəhərin içinə doldurursuz? Vaxtikən Bakının kanalizasiya məsələləri müzakirə olunanda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı mənə dedi ki, bilirsiz, bizim bəlamız odur ki, şəhərin kanalizasiyası 300 000 nəfər üçün nəzərdə tutulub, amma indi Bakıda 2 milyona yaxın adam yaşayır. Bütün sahələr belədir. Vaxtilə dairəvi yol çəkdilər. Bu yol gəlib Biləcərinin üstünə çıxana qədər qumu da tökülmüşdü. Amma bir icra başçısı o yolu satdı, orada binalar tikildi. Mənim imkanım olsa, istəyir 50 ev tikilsin, onları uçurub o yolu "Koroğlu" metrosuna qədər uzadardım. Yol qaldı yarımçıq. İndi Bakının dairəvi yolu yoxdu. Bilmirsən hardan gedəsən?!"*

# "Əvəzedilməz" erməni hüquqşünasın acı sonluğu

**1920-ci ilin yanvar ayında Ümumrusiya Fövqəladə Komissiyasının ("ÇK") iclasında xarici kəşfiyyat şöbəsinə kimin rəhbərlik edəcəyi müzakirə ediləndə əsas namizədlər arasında milliyyətcə erməni olan Ruben Katanyanın da adı hallanıb. Katanyan həmin ərəfədə Qırmızı orduda siyasi işlər idarəsinə rəhbərlik edib. "ÇK"-nın sədri Feliks Dzerjinski Katanyanı hələ oktyabr inqilabı dövründən, 1917-ci ildən yaxından tanıyıb və onun iş məhsuldarlığının bir o qədər də yüksək olmadığına yaxşı bələd olub. Məhz elə bu səbəbdən də Dzerjinski Ruben Katanyanın "ÇK"-nın xarici kəşfiyyat şöbəsinə rəhbərlik etməsinin tərəfdarı olmayıb. Amma buna baxmayaraq o, ümumi yığıncağın yekdil qərarının əksinə də gedə bilməyib.**

Beləliklə, Ruben Katanyan 1920-ci ilin yanvar ayından *"ÇK"*-nın xarici kəşfiyyat şöbəsinə rəhbərlik edib. Sonralar məlum olub ki, Dzerjinski Katanyan haqqında fikirlərində haqlı olub. Katanyan təkcə iş bacarığının aşağı olması, yarıtmazlı ilə deyil, həm də dövlətə xəyanəti ilə Dzerjinskinin fikirlərinə elə özü haqq qazandırıb...

Ruben Katanyan 1880-cı ildə Tiflisdə erməni ailəsində anadan olub. Anası evdar qadın, atası Tiflis gimnaziyasında işləyib. Katanyan atasının işlədiyi gimnaziyanı bitirdikdən sonra Moskva Universitetinin hüquq fakültəsində ali təhsil alıb. Tələbəlik illərində bolşeviklər partiyasının gənclər hərəkatına qoşulub, inqilabi proseslərdə iştirak edib.

Universiteti bitirdikdən sonra Katanyan bir müddət vəkillik fəaliyyəti ilə məşğul olub. Daha sonra Qırmızı orduda siyasi işlər idarəsində və Mərkəzi Komitənin təbliğat-təşviqat şöbəsində fəaliyyət göstərib.



## Katanyanı həbsdən Mikoyan da xilas edə bilməyib

Fəallığı, yersiz canfəşanlığı ilə fərqlənən Katanyan 1919-cu ildə Polşa kəşfiyyat orqanlarına işləməkdə şübhəli bilinib. Amma bu fakt sübuta yetirilmədiyindən onu rəsmi ittiham edə bilməyiblər. *"ÇK"*-nın strukturu formalaşanda və təkmilləşdiriləndə Katanyan özünü bu quruma salmaq üçün bütün mümkün variantlardan istifadə edib və istədiyinə nail olub. Yuxarıda qeyd etdiyimiz kimi o, 1920-ci ildə *"ÇK"*-nın xarici kəşfiyyat şöbəsinə rəis təyin olunub.

Katanyan bu vəzifədə uzun müddət xidmət edə bilməyib. Bir tərəfdən işinin öhdəsindən gələ bilməməsi, digər tərəfdən isə nə vaxtsa xarici kəşfiyyata işləməsi şübhəsi onu bu vəzifədən ayırmağa məcbur edib. Dzerjinskinin sərt xəbərdarlığından sonra Ruben Katanyan şübhələrin daha da dərinləşməməsi üçün öz ərizəsi ilə *"ÇK"*-nın xarici kəşfiyyat şöbəsi rəisi vəzifəsindən "könüllü" olaraq uzaqlaşıb.

1922-ci ildə fəaliyyətini SSRİ-nin Berlindəki baş konsulu kimi davam etdirən Katanyan bu vəzifədə də uzun müddət tab gətirə bilməyib. Bu vəzifədə işləməsinin bir ili tamam olmamış onu Moskvaya geri çağırıblar. Katanyanın konsul vəzifəsindən geri çağırılmasının səbəbi məxfi saxlanılıb.

Katanyan sonrakı fəaliyyətini prokurorluq və ədliyyə orqanlarında davam etdirib. O, bir müddət Rusiya prokurorunun köməkçisi işlədikdən sonra SSRİ Ali Məhkəməsi prokurorunun böyük köməkçisi vəzifəsinə təyin olunub və məhkəmə proseslərində dövlət ittihamçısı qismində iştirak edib. Katanyan bu vəzifədə bütün *"bacarığını"* göstərməyə imkan tapıb. O, bütün proseslərdə dövlət ittihamçısı kimi məhkəmədən ittiham olunanlara ən ağır cəzaların verilməsini tələb edib.

Müasirlərinin yazdıqlarına görə Katanyan SSRİ Ali Məhkəməsində işləyərkən özünü bu qurumun ən vacib fiqurlarından biri sayıb. Özünü əvəzedilməz hüquqşünas sayan *"köməkçi"* məhkəmə rəhbərliyi ilə hesablaşmağı da özünə rəva bilməyib. Məhz həmin ərəfələrdə Ruben Katanyanla SSRİ Ali Məhkəməsinin sədri Aleksandr Vinokurov arasında dəfələrlə konfliktlər yaranıb. Vinokurov Katanyanın özbaşınalığı ilə bağlı bir neçə dəfə Kremldə məsələ qaldırıb. Amma bu məsələnin rəsmi müstəviyə çıxarılmasına Anastas Mikoyan imkan verməyib. Belə ki, Katanyanla Mikoyanın arasında xoş münasibətlər hökm sürüb və Mikoyan həmişə onu müdafiə edib.

Katanyan haqqında Mərkəzi Komitəyə rəsmi və qeyri-rəsmi şikayətlər təkcə işlədiyi Ali Məhkəmədən deyil, eyni zamanda *"NKVD"* tərəfindən də daxil olub. Artıq bu çoxsaylı şikayətləri Mikoyan da ört-basdır edə bilməyib. Nəhayət, məsələ o həddə çatıb ki, Katanyanın fəaliyyətini *"NKVD"* rəhbəri Nikolay Yejov şəxsən özü nəzarətə götürüb. Onun göstərişi ilə Katanyanın fəaliyyəti bir neçə ay ərzində ciddi şəkildə araşdırılıb. Araşdırmalar zamanı Katanyanın bütün açıq və gizli fəaliyyəti aşkar edilib. O da məlum olub ki, erməni hüquqşünas 1920-ci illərdən başladığı casusluq fəaliyyətini hələ də davam etdirməkdədir.

Bütün araşdırmalar, dəlil və sübutlar *"məxfi"* qrifli arayışla İosif Stalinə təqdim edilib. Stalin arayışla tanış olduqdan sonra onun üzərinə dərkənar qoyub: ***"Həbs edilsin"***.

Beləliklə, 1938-ci ildə Ruben Katanyan prokurorluq və ədliyyə orqanlarında terrorçu qrupların yaradılmasında və antisovet fəaliyyətdə ittiham olunaraq həbs edilib. Onun məhkəmə prosesi vaxtilə özünün işlədiyi SSRİ Ali Məhməkəməsində keçirilib. Bu dəfə o, məhkəmə zalında dövlət ittihamçısı kimi deyil, dövlətə xəyanət edən, bir çox ağır cinayətlərə imza atan müttəhim kimi əyləşib.

Məhkəmə prosesində Katanyan özünə bəraət qazandırmaq istəsə də, hüquqi bilgilərindən istifadə edib özünü xilas etməyə çalışsa da, törətdiyi cinayət əməllərinin konkret sübut və dəlilləri sonda onu susmağa məcbur edib.

Məhkəmənin hökmü ilə Ruben Katanyan 17 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Cəza üçün 17 il kiçik bir müddət deyil. Amma bu böyük rəqəmə baxmayaraq Katanyanın bəxti bu dəfə də "gətirib". Yuxarılardan kiminsə köməyi sayəsində Katanyan layiq olduğu güllələnmə cəzasından canını qurtara bilib.

# Andropovun son saatı

## Çazov baş katibin öləcəyini birinci Qorbaçova deyib, o isə "heç kim bilməsin" əmri verib

39 il öncə, 1984-cü ilin fevral ayının 8-də Kremldə növbəti siyasi gərginlik yaşanıb. SSRİ Səhiyyə Nazirliyinin 4-cü idarəsinin rəisi (idarə Kreml məmurlarının səhhətinə nəzarət edib) Yevgeni Çazov Yuri Andropovun sağlıq durumu ilə bağlı ilk olaraq Mixail Qorbaçova məlumat verərək bildirib ki, baş katibin ömrünün sonuna saatlar qalıb. Bu məlumatdan sonra Mərkəzi Komitənin katibləri Mixail Qorbaçovun, Konstantin Çernenkonun, müdafiə naziri Dmitri Ustinovun, SSRİ Nazirlər Sovetinin sədri Nikolay Tixonovun və SSRİ xarici işlər naziri Andrey Qromıkonun beşlikdə qeyri-rəsmi görüşü keçirilib. Yevgeni Çazov sonralar öz xatirələrində bu görüş haqqında yazıb: ***"Yuri Andropov son saatlarını yaşayırdı. Vəzifə borcum olaraq mən bu haqda Siyasi Büro üzvlərini məlumatlandırmalıydım. Baş katibin səhhəti ilə bağlı məlumatı ilk olaraq Qorbaçova verdim. O, mənə tapşırdı ki, Andropovun səhhəti haqqında bütün informasiyalar tam məxfi saxlanılmalıdır və tövsiyyə etdi ki, başqa bir adama, o cümlədən Siyasi Büronun digər üzvlərinə bu haqda məlumat verməyim. O, lazımi məsələləri özü həll edəcəyini bildirdi. Həmin gün, fevralın 8-də Çernenko, Qorbaçov, Ustinov, Tixonov və Qromıko axşamdan xeyli keçmiş Kremldə görüş keçiriblər. Məqsəd yeni baş katibin kim olacağını müzakirə etmək olub. Qorbaçov birinci kürsüyə can atsa da, beşliyin son qərarı Çernenkonun üzərində dayanıb..."***

Əslində Andropovun vəfat edəcəyi Kreml məmurları üçün çox da təəccüblü olmayıb. O, 15 aylıq hakimiyyətinin son beş ayını xəstəxanalarda keçirib. Andropov sonuncu dəfə Siyasi Büronun iclasında 1 sentyabr 1983-cü ildə iştirak edib. Bu iclasdan sonra o, Kremldə nadir hallarda görünüb. Xaricdən gələn dövlət başçıları ilə görüşlərin reqlamenti o qədər qısaldılıb ki, Andropov heç olmasa 5-10 dəqiqə bu görüşlərdə iştirak edə bilsin. 1984-cü ilin yanvarında isə baş katibin səhhətində daha ciddi problemlər yaranıb. O, yataqda olarkən sənədləri oxumaq gücündən də məhrum olub. Köməkçiləri oxumaqla həmin sənədləri Andropovun diqqətinə çatdırıblar.

Yuri Andropov 1984-cü ilin fevralın 9-da saat 16.50 dəqiqədə vəfat edib. Həmin gün baş katibin ölümü ilə bağlı ictimaiyyətə heç bir məlumat verilməyib. Səhərisi gün fevralın 10-da da heç bir rəsmi məlumat olmayıb. Amma televiziya və radio verilişlərinin proqramlarında dəyişiklik edilib, daha çox Şopenin, Çaykovskinin əsərləri səsləndirilib. Yalnız fevralın 12-də rəsmi olaraq Andropovun vəfatı ilə bağlı məlumat verilib və bildirilib ki, dəfn fevralın 14-də saat 12.00-da Qırmızı meydanda keçiriləcək.

Andropovun vəfatı ilə bağlı nekroloq Mərkəzi Komitənin katibi (əvvəllər *"Pravda"* qəzetinin baş redaktoru) Mixail Zimyaninin kabinetində hazırlanıb. Nekroloqun yazılmasında Mərkəzi Komitənin katibi Yeqor Liqaçov, MK-nin təbliğat və təşviqat şöbəsinin müdiri Boris Stukalin və Andropovun köməkçisi, adı Azərbaycanda da yaxşı tanınan Arkadi Volski iştirak edib.

Nekroloqda Andropov haqqında "görkəmli siyasi və dövlət xadimi" ifadəsi yazılanda Stukalin buna etiraz edib:

- Biz onun adını çox şişirdirik. Andropov cəmisi 15 ay baş katib vəzifəsində işləyib.

Liqaçov bu etiraza qətiyyətlə cavab verib:

- Məsələ baş katib vəzifəsində neçə ay işləməkdə deyil. Əsas ölkənin inkişaf tempi və nəticələrdir.





Bununla da, Andropov nekroloqda *"görkəmli siyasi və dövlət xadimi"* kimi təqdim olunub.

Fevralın 14-də saat 11.00-da Kremlin Sverdlovsk zalında Mərkəzi Komitənin plenumu öz işinə başlayıb. Rəyasət Heyətinə ilk daxil olan Konstantin Çernenko olub. Bu ənənəvi hal ondan xəbər verib ki, baş katib vəzifəsinə o seçiləcək. Çernenkonun yanında isə Mixail Qorbaçov əyləşib. Mərkəzi Komitənin yazılmamış qanunlarında bu da bir göstərici kimi qəbul edilib, baş katibin yanında əyləşən növbəti dəfə baş katib seçiləcək.

SSRİ Nazirlər Sovetinin sədri tribunaya çıxaraq bir neçə dəqiqəlik nitqdən sonra Konstantin Çernenkonun baş katib vəzifəsinə seçilməsini təklif edib. Heç bir müzakirə və etiraz olmadan Konstantin Çernenko Mərkəzi Komitənin növbəti rəhbəri seçilib.

Plenumdan sonra hamı əvvəlcə İttifaqlar Evinə, oradan isə Qırmızı meydana Yuri Andropovun dəfn mərasiminə toplaşıb. Konstantin Çernenko mavzoley tribunasına çətinliklə qalxdığı kimi, dəfn nitqini də çətinliklə söyləyib.

Bütün bu mənzərələri seyr edənlər yaxşı anlayıblar ki, yaxın müddətdə növbəti bir dəfn mərasiminə toplaşacaqlar. Pillə-pillə Kremlin işıqlı kabinetlərinə qədər gəlib çıxan Çernenko uzun illər arzuladığı və gözlədiyi baş katib vəzifəsinə çatanda nəinki ölkəni, heç özünü idarə etmək iqtidarında olmayıb. O, hakimiyyətdə olduğu 13 ayın yarıdan çoxunu ölkəni xəstəxana palatalarından idarə edib. Çernenkonun sıradan çıxmasını isə ən çox Mixail Qorbaçov gözləyib. Birincilik iddiasında olan Qorbaçov növbəti dəfə şansı əldən verməyəcəyinə tam əmin olub.

**Təqdim edən: İlham Cəmiloğlu**

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 052 (3620) 16 fevral 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik




## Hər gün ağ çörək yemək çox təhlükəlidir

Alimlərin fikrinə görə, hər gün ağ çörək və ağ undan hazırlanmış qidaların istehlakı təhlükəlidir və infarktın riskini artırır.

Hər gün çoxlu miqdarda çörək, makaron və s. un məmulatlarının qəbulu insanlarda ürək patologiyalarının və o cümlədən infarkt riskinin artması ilə sıx əlaqəlidir.

Alimlər bildirirlər ki, *"hər gün ağ undan hazırlanmış 350 qr məhsulun qəbulu vaxtından tez ölümün riskini 27% artırır"*.

Araşdırma zamanı 21 ölkədən olan 150 min insanın 10 ilə yaxın müddət ərzində sağlamlıq və qidalanma haqqında məlumatları təhlil olunub.

Mütəxəssislər aşkar ediblər ki, ağ undan hazırlanan məhsulların istehlakı arterial təzyiqin qalxmasına səbəb olur və həmçinin qanda şəkərin kəskin qalxmasına gətirib çıxardır. Yüksək şəkər qanı qatılaşdırır, damarlarda iltihab yaradır ki, bu da damarların zədələnmə və aterosklerozun inkişafına meylli edir.

Bunları nəzərə alaraq mütəxəssislər ağ undan hazırlanmış məhsulların istehlakını gün ərzində 50 qr qədər azaltmağı tövsiyə edirlər. Onların əvəzinə tərəvəz, göyərti və tamdənli taxılların istehlakını artırmağa çağırırlar.

## Soyuqdəymə zamanı ən faydalı yeməklərdən biri də kartof püresidir

**Soyuq dəymiş orqanizmə ət suflesi və kartof püresi şəklində yeməklər fayda verir.**

Terapevt Vladimir Sibirskinin sözlərinə görə, orqanizmin immun sistemi kəskin respirator virus infeksiyaları ilə mübarizə apardıqda orqanizmdə toksinlərin toplanması baş verir. Bədənin onsuz da öz imkanları həddində fəaliyyət göstərdiyi bu dövrdə qidanın həzm edilməsi enerji sərf edən prosesə çevrilir. Eyni zamanda, qida orqanizmə qüvvə və bəsləyici maddələr verir ki, bu da immunitetin sonrakı zəifləməsinə mane olur.

Vladimir Sibirski hesab edir ki, soyuqdəymə zamanı tərkibində vitamin və mikroelementlər olan yüngül yemək ən əlverişlidir. Həkim deyir: *"Azca süd əlavə olunmaqla ət suflesi və kartof püresi soyuqdəymə, qrip və ya kəskin respirator*



*virus infeksiyaları zamanı insanlar üçün ən yaxşı yeməklərdir"*.

Terapevt əlavə edib ki, orqanizmin qüvvəsini bərpa etməkdə karbohidratlar və yağlar kömək edir. Şəkərsiz sıyıqlar, meyvələr, toyuq bulyonu, ağartı məhsulları - həkim bunları soyuqdəymə zamanı ən yaxşı mənbələr adlandırıb. Soğan və sarımsaq artıq əmələ gələn xəstəlik vaxtı bir o qədər fayda vermir. Soyuqdəymə dövründə şirniyyatdan uzaq durmaq məsləhət görülür, çünki şəkər toksinlərin orqanizmdən çıxarılması prosesini ləngidir. Orqanizmin toksinlərdən daha yaxşı təmizlənməsi üçün daha çox su, çay, kompot içmək məsləhət görülür.

*"Xəstə insana duzlu ərzaqlar qəti qadağandır. Duz orqanizmdə mayeni saxlayır, xəstəlik zamanı isə maye bədəndən xaric olunmalıdır"*, - deyə mütəxəssis izah edib.

## Yatanda ağızdan su gəlməyin səbəbləri

**Ağız suyu - ağız içindəki bakteriyaları öldürmək və həzmi başlatmaq üçün ifraz edilən mayedir. Son illərdə yatarkən ağzınızdan su gəlməsi tez-tez rast gəlinən hal**



**olub. Bir çoxları yatarkən bunu hiss etmədiyi üçün probləmə ciddi yanaşmır. Ağızdan su axmasının bir neçə səbəbi ola bilər.**

Ağzı açıq yatmaq və bu şəkildə oyanan zaman ağızdan su gəlməsi səhv yuxu pozası, diş problemləri, allergiya, reflüks, parkinson xəstəliyi, diş çıxarma, dərmanların əks təsirləri, sinir sistemi pozğunluqları, ağız anatomiyasında problem və ya qıl qurdu kimi təsirlərin nəticəsidir.

Buna adətən kiçik uşaqlarda və körpələrdə rast gəlinir, amma müəyyən yaş kateqoriyasına aid edilmir. İstənilən yaşda insan bu xoşagəlməz halla üzləşə bilər.

Ağız quruluşunuz da tüpürcək axmasına səbəb ola bilər. Bəzi insanlar, yatarkən dodaqlarını bağlamaqda çətinlik çəkər. Dilin böyük olması, genişlənmiş badamcıq, çapraz dişlərdən, ya da şişmiş burun əti də dodaqların bağlanmasına çətinlik yaradır.

**Qarşısını necə almalı?**

Yuxuda olan zaman ağzınızdan su axması məlum olmayan sağlamlıq problemindən də ortaya çıxa bilər. Ən yaxşı müalicə üsulunu təyin etmək üçün əvvəlcə problemi müəyyənləşdirməlisiniz. Vaxt itirmədən allergiya, zəhərlənmə, sinus infeksiyası, badamcıqlar, diş problemləri və ya ruh və sinir xəstəlikləri kimi xəstəliklərin müalicəsi üçün həkimə müraciət edin.

Ağzınızdan su gəlməsi hər hansı ciddi xəstəlik əlaməti deyilsə, öz üsullarınızla bunun qarşısını ala bilərsiniz. Məsələn, yastıq alçaqdırsa, onu hündürüylə dəyişdirə bilərsiniz.

Həmçinin şübhəli dərmanlardan istifadə etdikdə orqanizminizdə dəyişiklik yaranırsa, həkiminizə bildirin. Burun əti və ya anatomik pozğunluq olursa, qulaq, burun, boğaz həkiminə gedib vəziyyət aydınlaşdırın və müvafiq müalicəyə başlayın.

Həkimlər kürəyi üstə yatmağı tövsiyə edir. Çünki belə yatmaq ağız suyunun, boğazdan aşağıya doğru axmasını təmin edir. Arxasıüstə yatmağa başlasanız, vəziyyətinizdə əhəmiyyətli dəyişiklik olduğunu görəcəksiniz. Bədəninizin şaquli vəziyyətdə olması kömək edəcək ki, ağzınız qapalı qalsın.



## Kimlərə armud yemək olmaz?

*"Həzm sistemlərində problem olan insanlar armud yeməkdən çəkinməməlidirlər".*

Bunu dietoloq Svetlana Fus məlumat deyib. O, meyvənin çox miqdarda lif ehtiva etdiyini, bunun da peristaltikanı artıraraq bağırsaq mukozasını qıcıqlandırdığını və armudun həddindən artıq istehlak edildikdə qaz meydana gəlməsinə səbəb olan fruktozanın olduğunu qeyd edib.

*"Mədə-bağırsaq traktının xəstəlikləri diaqnozu qoyulmayan şəxslər üçün isə armud yalnız fayda verəcək. Bu məhsul təbii pəhriz lifi (yüz qramda - gündəlik dəyərin 14%-i), silikon (17%), mis (10%), dəmir (12%) və kalium (6%) mənbəyidir"*, - Svetlana Fus qeyd edib.

Qidalanma mütəxəssisi deyib ki, armudun digər komponentlərinə B vitaminləri, fenolik birləşmələr və tanenlər (tanenlər) daxildir. Bunlar əsasən meyvənin qabığında olur.


Təsisçi:
Tapdıq Abbas

Baş redaktor:
Akif Nəsirli

Birinci müavin:
Şahnaz Salehqızı

İnformasiya şöbəsinin müdiri:
Röyal Əsədli

Bölgə müxbirləri:
Vaqif Cəmiloğlu
Sadıq Sadıqlı
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*
Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet "Son Dakika" MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**